# İman

Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.
("Maidə" surəsi, 9-cu ayə).

"İman" mədəni, maarif müəssisəsinin nəşri

Aprel 2013 (Rəbius-sani 1434) 02 (78)



# Yaşadığımız hər saniyə Allahın bizə verdiyi böyük bir fürsətdir

Allahdan qorxan səmimi müsəlmanın yaşadığı hər saniyənin, aldığı hər nəfəsin Allahdan özünə verilmiş böyük bir fürsət olduğunun şüuru ilə hərəkət etməlidir. Gözəl və xeyirli işləri təxirə salacaq zamanının olmadığını, Allahın bir sonrakı anı diləsə yaratmayacağını bilməli və bütün həyatını bu əhəmiyyətli həqiqətə görə yaşamalıdır.

Hər şeyin sahibi sonsuz güc sahibi olan Rəbbimiz Allah bir sonrakı saniyəni bizə bəxş edərək çox böyük lütf edir.

Çünki:

- Yaşadığımız hər an Allahı daha çox sevib, Allahdan daha çox qorxa bilərik
- Yaşadığımız hər an Allahın razılığını qazanmaq üçün daha çox səy göstərə bilərik
- Yaşadığımız hər an Allaha daha dərin dua edə bilərik
- Yaşadığımız hər an Allahdan daha çox bağışlanma diləyə bilərik
- Yaşadığımız hər an bir əvvəlki andan daha səmimi ola bilərik
- Yaşadığımız hər an daha dərin imanlı, daha təqvalı bir insan ola bilərik
- Yaşadığımız hər an vicdanımızı daha çox istifadə edə bilərik
- Yaşadığımız hər an ağlımızı və gözəl əxlaqımızı daha çox inkişaf etdirə bilərik
- Yaşadığımız hər an Quran əxlaqını izah etmək və yayılmasını təmin etmək üçün daha çox səy göstərə bilərik
- Yaşadığımız hər an şəxsiyyətimizi daha yetkinləşdirə bilərik
- Yaşadığımız hər an sevgini daha dərin yaşaya bilərik
- Yaşadığımız hər an daha dərin düşünə bilərik
- Yaşadığımız hər an səhv və əksikliklərimizi aradan qaldırmaq üçün səy edə bilərik.

Unutmamalı olduğumuz çox əhəmiyyətli bir həqiqət də var ki, yaşadığımız hər an bizi dünyadakı son nəfəsimizə, bütün fürsətlərin artıq sona çatdığı o ana - ölüm mələkləri ilə qarşılaşacağımız, canımızın alınıb bizi yaradan sonsuz güc sahibi uca Yaradanımız Allaha qovuşacağımız və əbədi axirət həyatımızın başlayacağı ölüm anımıza bir az daha yaxınlaşdırır.

# HƏZRƏT FATİMƏNİN (S.Ə) ÖZƏLLİKLƏRİ

***14 aprel "Fatimə günləri" adlandırılan və o xanımın vəfat ildönümünü əhatə edən tarixin sonuncu günü və digər məlumata görə, vəfatı günüdür.***




**Həzrət Fatimeyi-Zəhranın (ə) üstünlüklərini sadalmaqla və təsvir etməklə bitməz. Bütün müsbət cəhətlər ən uca dərəcədə Onun şəxsiyyətində zahir olmuşdu. Amma Fatimə (ə) bəzi elə keyfiyyətlərə də sahib idi ki, bunlar dünyanın başlanğıcından sonuna kimi yaşamış və yaşayacaq heç bir bəşər övladında mövcud olmamış və olmayacaqdır. Məhz bu keyfiyyətlər Onu öz bacıları da daxil olmaqla müasiri olduğu bütün müsəlman qadınlardan, özündən əvvəl yaşamış mömin xanımlardan, hətta kişilərdən belə, fərqləndirir və üstün edir. Aşağıda həmin xüsusiyyətlərdən bir neçəsini diqqətinizə çatdırırıq.**

Fatimə (ə) bəşər tarixində yeganə tam məsum qadındır. Məsum kateqoriyasına aid olan bütün şəxslər ya peyğəmbər, ya da imam olmuşlar (kişi cinsindən olmuşlar). Yalnız Fatimə (ə) öz atası Həzrət Məhəmməd Peyğəmbərlə (s) və on iki imamla birlikdə 14 məsumun cərgəsinə daxildir.

Fatimə (ə) əsil-nəsəb və ailə tərkibi baxımından nadir üstünlüyə malik qadındır. Tarixdə Ondan başqa elə bir qadın tapmaq olmaz ki, bu qədər şərəfli atası, həyat yoldaşı və övladları olsun. Fatimə (ə) peyğəmbərin qızıdır, imamın həyat yoldaşıdır və daha iki imamın anasıdır.

Həzrət Fatimə (ə) yeganə qadındır ki, Əli ibn Əbu Talibdən (ə) başqa heç kim Onun əri olmağa layiq deyildi. Vaxtilə Məkkə böyüklərindən bir çoxu Fatimə (ə) ilə evlənmək istəmiş, amma Peyğəmbər onların elçiliyini rədd etmişdi. Yalnız Peyğəmbərin əmisi oğlu Əli (ə) bu şərəfə nail ola bildi. Həzrət Məhəmməd Peyğəmbər (s) buyurmuşdu: "Əgər Əli olmasaydı, Fatiməyə tay (yəni ər) tapılmazdı".

Peyğəmbərin övladları içində yalnız Fatimə (ə) Onun vəfatından sonra dünyasını dəyişmişdir. Məlum olduğu kimi, Peyğəmbərin bütün oğulları (Qasim, Abdullah və İbrahim) körpə ikən vəfat etmişdilər. Qalan üç qız da atalarının sağlığında vəfat etdi. Rüqəyyə hicri 2-ci (miladi 624-cü), Zeynəb hicri 8-ci (miladi 630-cu), Ümmi-Külsum isə hicri 9-cu (miladi 630-cu) ildə dünyadan köçdü.

Həzrət Məhəmməd Peyğəmbərin (s) yaxın qohumları və Əhli-beyti arasında hamıdan əvvəl dünyasını dəyişən də Fatimeyi-Zəhradır (ə). Bir rəvayətə görə, atasından 75 gün, başqa rəvayətə görə isə 95 gün sonra vəfat etmişdir. İslam Peyğəmbəri həyatının son saatlarında Fatimənin (ə) tezliklə dünyadan köçəcəyini və cənnətdə Onunla hamıdan tez görüşəcəyini xəbər vermişdi.

Peyğəmbərin nəslini davam etdirmək şərəfi övladlarından yalnız Fatiməyə (ə) qismət oldu. Peyğəmbərin qalan qızlarının da uşaqları var idi.



Amma bu uşaqların hamısı ya kiçik yaşlarında vəfat etmiş, ya da sonsuz olmuşlar. Rüqəyyənin Osman ibn Affandan olan oğlu Abdullah anasının vəfatından az sonra kiçik yaşlarında vəfat etdi. Ümmi-Külsumun Osmanla izdivacından övladı olmadı. Zeynəbin Əbül-As ibn Rəbi ilə evliliyindən Əli adlı oğlu və Ümamə adlı qızı vardı. Əli hicri 12-ci (miladi 633-cü) ildə dünyasını dəyişdi. Ümamə isə Həzrət Fatimənin (ə) vəfatından sonra onun öz vəsiyyətinə əsasən Həzrət Əliyə (ə) ərə getdi. Bu izdivacdan Məhəmmədül-övsət adlı bir oğulun doğulduğu bəzi tarix kitablarında qeyd edilir ki, onun da övladı qalmamışdır.

Yalnız Həzrət Fatimənin (ə) övladları İmam Həsən (ə), İmam Hüseyn (ə) və Zeynəbi-kübra Peyğəmbər nəslini davam etdirmişlər. Seyyidlərin böyük əksəriyyətinin nəsil şəcərəsi məhz Həzrət Fatimə (ə) vasitəsilə Peyğəmbərə gedib çıxır (qalan seyyidlər Bəni-Haşimin başqa qollarına mənsubdurlar; birbaşa Peyğəmbərin nəslindən deyillər). Bəzi təfsirlərə görə, Quranda Kövsər surəsinin əvvəlindəki "Həqiqətən, biz sənə kövsər bəxş etdik" ayəsi də Həzrət Fatiməyə (ə) işarədir. Kövsər cənnətdəki bulağın adıdır, həm də ərəb dilindən tərcümədə çoxluq, bolluq deməkdir. Təfsirlərdə yazılır ki, Peyğəmbərin oğulları kiçik yaşlarında vəfat etdikləri üçün müşriklər o həzrətə tənə vurub, sonsuz adlandırırdılar. Allah-təala isə Peyğəmbərin nəslinin məhz qızı vasitəsilə artıb-çoxalacağını bildirmiş və Ona tənə vuranlara cavab olaraq buyurmuşdu: "Sənə rişxənd edənin özü sonsuzdur" (Kövsər, 3).

Fatimə (ə) "dünya və axirət qadınlarının xanımı" ləqəbini qazanmış yeganə qadındır. Əksər hədislərdə Fatimənin (ə) adı digər üç müqəddəs qadınla – İsa Peyğəmbərin (ə) anası Məryəm, Fironun mömin xanımı Asiyə və Həzrət Mühəmməd Peyğəmbərin (s) həyat yoldaşı Xədicə ilə yanaşı çəkilsə də, bəzi mənbələrdə Onun bu üç qadından daha yüksək məqama sahib olduğu bildirilir. Məsələn, hədislərin birində deyilir ki, Peyğəmbər Fatiməni (ə) "dünya qadınlarının xanımı" adlandıranda səhabələr soruşdular: "Məgər O, öz zəmanəsindəki qadınların xanımı deyilmi?". Peyğəmbər cavab verdi: "Öz zəmanəsinin qadınlarının xanımı İmran qızı Məryəm idi. Fatimə isə dünyanın əvvəlindən sonuna qədər bütün qadınların xanımıdır" (Əmaliyi-Səduq, 73-cü məclis, hədis 18; Biharül-ənvar, 43-cü cild, səh. 24 və 26). Başqa bir hədisdə isə İmam Cəfər Sadiq (ə) Peyğəmbərin Fatiməni (ə) ""əvvəldən axıra kimi bütün cənnət qadınlarının xanımı" adlandırdığını bildirir (Biharül-ənvar, 43-cü cild, hədis 21).

Bəzi mənbələrdə bildirilir ki, Həzrət Məhəmməd Peyğəmbərin (s) yeganə doğma qızı Fatimə (ə) olub. Digər üç qız – Zeynəb, Rüqəyyə və Ümmi-Külsum isə Xədicənin əvvəlki ərlərindən idilər və əslində Həzrət Məhəmmədin (s) ögey qızları sayılırdılar.





# ALLAHIN SEVİMLİSİ OLMAQ ÜÇÜN İNSAN NƏ ETMƏLİDİR?

***Həqiqi mömin həyatı boyu çalışır ki, elə işlər görsün ki, həm Allahın və həm də cəmiyyətin sevimlisinə çevrilsin. İmam Əlinin (ə) bu sahədə dəyərli tövsiyələri vardır ki, onlara nəzər salaq:***

## Dili kontrol etmək

İmam (ə) buyurur: "Elə şey demə ki, sənə deyilməsini sevmirsən". İnsan gərək özünə bir nəzər salsın. Görsün ki, başqalarının onun eybini üzünə deməyini xoşlayır, yoxsa yox. Ya da onu çirkin ləqəblərlə çağırmasını xoşlayırmı? Şübhəsiz, normal insan bunları sevməz. O, da gərək bu cür olsun. İnsanların eybini hamının içində üzünə deməsin. Ya insanları pis adlarla və ya ləqəblərlə çağırmasın.

## Az ruzi, ancaq abırlı həyat

İmam (ə) buyurur: "Həqiqətən, Sübhan Allah tərəfindən insana çatan az ruzi başqaları tərəfindən verilən çox bəhrədən daha yaxşı və əzizdir. Baxmayaraq ki, hamısı Allah tərəfindəndir".

Adi insanların bütün səyləri sərvət qazanmaq üçündür. Ancaq İmam (ə) abırlı olmağı və ruzinin cəlal olmasını düşünür. Ona görə də izzəti-nəfslə qazandığı az miqdarda olan ruzini başqalarından minnət və təmənna ilə aldğı çoxlu mənfəətdən üstün hesab edir.

## Susmaq lazım olan yerdə danışmamaq

İmam (ə) buyurur: "Sakit olduğuna görə yaranan təqsiri aradan qaldırmaq, söylədiklərinə görə əldən gedəndən daha asandır".

İmam (ə) bu sözləri ilə lazımsız söhbət etməkdən çəkinməyi tövsiyə edir. İnsan hər bir halda danışa bilər, ancaq müəyyən hallarda susmağı məsləhətdir. Məsələn, naməhrəmlə söhbət kimi. Ola bilsin ki, insan susaraq qarşı tərəfi nigaran və narahat etsin. Ancaq bunu aradan qaldırmaq asandır. Ancaq elə söz deyə bilərsən ki, onu geri qaytarmaq mümkün olmaz və vurduğu ziyanı aradan qaldırmaq olmaz.

İnsan dilinə nəzarət etməlidir, əks halda batinində olanların hamısını bayıra tökə bilər, yaxud, günaha mürtəkib ola bilər.

## Qəzəbini yatızdırmaq

İmam (ə) buyurur: "Qəzəb qədəhindən qurtum-qurtum iç, qəzəbini yatızdır. Çünki mən aqibətdə ondan da şirin içəcək görmədim. Mal baxımından ondan da ləzzətlisini tapmadım".

Qəzəbi yatızdırmaq asan bir iş deyildir. Ancaq aqibəti çox şirindir. İmam (ə) başqa yerdə buyurur: "Səninlə kobudluq edənlə mülayim ol ki, tezliklə sənin üçün o, da mülayim olsun". Quranda oxuyuruq: "Yaxşı iş (gözəl əqidə, əməl və söz) ilə pis iş əsla bir deyil. (Buna görə də sənə yetişən pislikləri) ən gözəl üsulla dəf et. Onda səninlə arasında düşmənçilik olan şəxs birdən (elə dəyişər ki,) sanki yaxın dost və qohumdur".

("Fussilət" 34).

O kəs ki, başqalarının pislikləri qarşısında özünü kontrol edə bilirsə, səbir edə bilirsə - Allahın və bəndələrin yanındakı məqamı uca olar. Əlbəttə başqaları gərək bu rəftardan sui-istifadə etməsinlər. Onu məzlum hesab etməsinlər.

## Şəxsiyyəti qorumaq

İmam (ə) buyurur: "Şəxsiyyətinizdə və dəyərinizdə möhkəm olun və öz yolunuzu gedin". Özünə hörmət insana başqaları da hörmət edər. Bizim dostlarımızın və qonşularımızın da bizim kimi sevgisi və qəzəbi vardır. Bəzi şeyləri sevir və bəzilərini isə sevmirlər. İnsanın ictimai şəxsiyyəti o zaman düzgün formalaşır ki, insanların daxil istəklərinə uyğun rəftar edər. İmam Əli (ə) buyurur: "O kəs ki, öz şəxsiyyətinə və abırına görə nigarandır, gərək mübarizədən çəkinsin". İctimai rabitəni tənzim etmək üçün başqalarının hüququna riayət etmək lazımdır.

## Xeyir işlər görmək

İmam (ə) buyurur: "Xeyir ümidi ilə gedin". Bu cür insanlar - ehtiyac sahiblərinin müraciət etdiyi və hacətlərini yerinə yetirdiyi insanlardır. Yaxşı insanları hamı sevir, çünki bilirlər ki, ondan heç bir zaman ziyan gəlməz. O kəsin ki, əziyyət etmək və günah işlətmək üçün bir istəyi yoxdursa, məxluqların hacətini yerinə yetirərək Allahın razılığını əldə edibsə, deməli bu insan İlahi qürb yolundadır.



# DIN VƏ ONUN ƏSAS DAYAQLARI

**"Din" kəlməsinin müxtəlif mənaları vardır. Onlardan: "cəza", "itaət", "adət", "hökm", "bağlılıq", "qəhr və qələbə" və s. qeyd etmək olar. Amma, bu sözün ən mühüm və ümdə mənası "İtaət və əmrə tabe olmaqdır". Əlbəttə, dinin "bağlılıq" mənasında olmasını da nəzərdən qaçırmaq olmaz. Bütün bu mənalara diqqət yetirməklə din anlamını belə tərif etmək olar:**

1. Varlığın mənşəyinə itaət üçün insan həyatını nizama salan qanun və hökmlər toplusuna din deyilir.

Yuxarıdakı tərifi daha da dəqiqləşdirmək üçün dini belə də tərif etmək olar:

2. Din - varlığın mənşəyinə əqidə yolunda insanın rəftar və əməllərində qəbul etdiyi bir bağlılıqdır.

Bu iki tərifə əsasən dinin iki mühüm və əsas kökü olacaqdır:

1.Varlığın mənşəyinə əqidə;

2.Bu əqidədən doğan tələblərə əməl etmək.

İnsanların, varlığın mənşəyi haqda olan baxışları müxtəlif olduğundan, onların dinə olan münasibətləri də bir-birindən fərqlidir. Ayrı-ayrı şəxslər və ya cəmiyyətlər arasındakı dini ixtilafların da kökü məhz budur.

Mərhum Əllamə Təbatəbai din haqda belə deyir: "Quran nöqteyi-nəzərindən, xalq arasında mövcud olan ictimai adət və ənənələrə din deyilir. Bu ictimai adət-ənənələr də öz növbəsində fitri və haqq dinə və bir də təhrif olunmuş və qeyri-fitri dinə bölünür."

Digər bir cəhətdən də, ilahi dinlər ayrı-ayrı fərdlərin və cəmiyyətin islahı, təkamülü, nicat və xoşbəxtliyi üçün göndərilmişdir. Ona görə də dinin mahiyyətini başqa bir ifadə ilə belə izah edirlər: " - Din, Allah-Təala tərəfindən bəşəriyyətin xoşbəxtliyə çatmasından ötrü haqq peyğəmbərlərə nazil olan hökmlər və göstərişlər toplusudur. Ona görə bu əmrlərə və qayda-qanunlara tabe olmağı lazım bilmişdir ki, insanlar bunlara tabe olmaqla Allahın vəd və zəmanət verdiyi səadətə çatsınlar."

Bəzi alimlər və tədqiqatçılar isə din haqqında belə demişlər: "Din elə bir ilahi quruluşdur ki, ağıl və təfəkkür sahiblərini öz iradə və ixtiyarı ilə dünyada xeyirə və axirətdə isə səadətə tərəf sövq etdirir və onları düzgün yola istiqamətləndirir."

Qərb alimləri də din haqqında müxtəlif mülahizələr irəli sürmüşlər. Onlardan bəziləri deyirlər: "Din, yaranmışların yaradan qarşısındakı, insanın Allah, cəmiyyət və özü qarşısındakı vəzifələr toplusudur". Yaxud, - "Din insanların öz vacib və zəruri vəzifələrini ilahi əmrlərin nəzərə alınması əsasında olduğunu dərk etmələrinə deyilir."

Başqa bir tərifdə deyilir: " - Din, həmin ibadətdir. İbadət iki məqalədən, iki ünsürdən ibarət bir əməldir."

1. İbadət insan ağlının qəbul və təsdiq etdiyi bir əməldir. İnsan onun vasitəsilə yenilməz bir qüvvənin varlığını qəbul edir;

2. İbadət məhəbbətlə yoğrulan içəridən gələn bir əməldir. İnsan onun vasitəsilə yenilməz bir qüvvənin eşq-məhəbbətinə doğru yüksəlir.

Dinə verilən bütün bu təriflərin hamısında müəyyən iradlar və çatışmazlıqlar tapmaq olar. Tərif və izahların müştərək nöqtəsi budur ki, onların hamısı səmavi vəhyə, mütləq vücud sahibinin (yəni Pərvərdigarın) varlığına inama əsaslanır. Ona görə də belə tərifləri yalnız ilahi dinlərə aid etmək olar. Halbuki, bəşəri əqidələrin arasında qeyri-İlahi dinlər də mövcuddur. Kor- təbii surətdə yaranaraq təkcə insan ağlına əsaslanan, yaxud xəyal və gümanlardan yaranan xurafat dinlər və ümumiyyətlə bütlərə, ulduzlara, mələklərə və s. əsaslanan dinlər də vardır. Bunları nəzərə alsaq, belə dinlər yuxarıdakı tərifdən kənarda qalacaq. Halbuki, Quran nöqteyi-nəzərindən bu kimi düzgün olmayan əqidələr də "din" adlandırılmışdır. Ali-İmran surəsinin 85-ci ayəsində oxuyuruq: " - Hər kim İslamdan başqa bir din ardınca gedərsə, heç vaxt ondan qəbul olunmaz."

Bundan əlavə, "Kafirun" surəsinin 5-ci ayəsində buyurulur: " - Sizin öz dininiz və mənim də öz dinim vardır."

Yuxarıda qeyd olunan bu çatışmazlıqlar, bəzi dinşünas alimlərin dinin tərifini genişləndirməsinə səbəb olmuşdur. Onlar dinin tərifində yazırlar: "Din, insanların mütləq azadlığına və özbaşınalıqlarına mane olan çəkinmələr və pəhrizlər toplusuna deyilir."

Başqa bir tərifdə deyilir: " - Din, insanların müqəddəs hadisə və varlıqlarla bağlı olan əməl və etiqadlarından ibarətdir ki, onlar bir-biri ilə sıx əlaqədədir."

Yuxarıdakı iki tərifdə mütləq vücud və varlıq

sahibindən danışılmır. Bu kimi izahları qəbul edənlər, əslində qeyri-İlahi dinləri də dinin tərifinə daxil etmək istəmişlər. Lakin bu mövzuda başqa bir məsələyə də diqqət yetirmək lazımdır. Dinlər tarixi barədə nəzəriyyə irəli sürən tarixçilər yekdilliklə bu qənaətə gəliblər ki, bəşər tarixində formalaşan bütün cəmiyyətlərdə daimi olaraq, insan həyatının əvvəli və sonu, varlığın və yaradılışın səbəbləri haqda düşünüblər. Bu barədə onlar müəyyən fikirlər irəli sürmüş və ona etiqad bəsləmişlər; düzgün və ya səhv, haqq və ya batil, ağıl və məntiqə uyğun və ya xurafi olmasından asılı olmayaraq, onları qəbul etmişlər. Başqa sözlə desək, xurafi dinlərin meydana gəlməsi insanların özü barəsindəki suallara necə cavab tapmalarından asılı olub. İnsanlar daim "Haradan gəlmişəm?", "Nə üçün gəlmişəm?", "Hara gedirəm?" və bu kimi digər suallara cavab tapmağa çalışıb. İlahi və xurafi olmasından asılı olmayaraq, demək olar ki, bütün dinlər varlığın nizam və quruluşu barədə müxtəlif cür düşünüb müəyyən nəzəriyyələr irəli sürüblər. Onların arasında nəzərə çarpan fərq, yalnız bu fikirlərin məntiq və əql və ya xurafat və mövhumat əsasında olmasındadır. Gələcək dərslərdə öyrənəcəyik ki, "Buddizm", "Caynizm" və "Konfisiyus" əqidələrində varlığın yaradanına etiqadın olmasını təsəvvür etmək səhv və qəbulolunmazdır. Buradan məlum olur ki, varlığın mənşəyinə etiqad bütün dinlərin əsas özəyini təşkil edir. Diqqət olunmalı başqa bir əsas da "pərəstiş və ibadətin əsasları"dır ki, yuxarıdakı təriflərin bəzilərində öz əksini tapmışdır.

İnsan varlıq aləminin başlanğıcını dərk etdikdən sonra başa düşür ki, onun yaradanı sonsuz qüdrət və diqqət sahibidir. İstər-istəməz insan Onun bu əzəmət və qüdrəti qarşısında özünü zəif, gücsüz və möhtac hesab edir. Ona görə də insanda bütün qəlbi ilə əyilmə, boyun əymə, itaət hissi yaranır. Bu hisslə yanaşı insanda mütləq varlıq müqabilində ehtiyac hissi və müqəddəs bilmək, məhəbbətini izhar etmək hissi əmələ gəlir. Belə bir halətə ibadət və pərəstiş deyilir. Əslində, insan bir tərəfdən varlığın Yaradanının qəzəb və tədbirinin qorxusundan amanda qalmaq, başqa tərəfdən də Onun razılığını, lütf və mərhəmətini qazanmaq istəyir; Ondan kömək almaqla öz ehtiyaclarını təmin etməyə çalışır. Bu iş adətən xüsusi əməl və zikrlər vasitəsilə həyata keçirilir; bu hər bir din və məzhəbdə özünə xas şəkildə, müxtəlif cür baş verir. Ona görə də hər bir dinin ibadət və mərasimləri başqa dinlərdən fərqlidir. Müəyyən bir dinə etiqad bəsləyən şəxsin ibadət forması onun "varlıq mənşəyini" necə tanımasını və dərk etməsini göstərir. Qeyd etmək lazımdır ki, dində boyun əymə və itaət yalnız varlığı idarə edən yenilməz qüvvə sahibinə tabe olmaqdan ibarət deyil. Çünki, varlıq aləmində yerin cazibə qüvvəsi kimi elə qüvvələr vardır ki, insanlar istər-istəməz onlara boyun əyir və tabe olur. Bu kimi hallara adətən ibadət deyilmir. İbadət elə bir təzim, itaət və boyun əyməyə deyilir ki, əvvəla o, təzim olunan və müqəddəs sanılan bir zat və həqiqi varlığın müqabilində olsun. Məlum olduğu kimi, varlıq aləmində heç bir qüvvə təkcə qorxulu və qəzəbli olduğu üçün müqəddəs sayılmır və təzim olunmur. İkincisi, elə bir zat və varlıqı müqəddəs sayılır və təzim olunur ki, mütləq dərəcədə kamala və yenilməz vəsflərə malik olsun. Belə ki, o zat və qüdrət bütün varlıqlardan üstün olmalıdır ki, insan bu mütləqiyyətə görə özünü ona möhtac bilib onun müqabilində pərəstiş hissi keçirsin.

Beləliklə, məlum olur ki, hər hansı bir varlığı müqəddəs sanmaq və ya ona təzim etmək heç də həmişə sitayiş etməklə yanaşı olmur. Məsələn biz şərəf, namus, azadlıq, səxavət və s. bu kimi məfhumlara dərin hörmət və təzimlə yanaşır, lakin heç vaxt onlara ibadət və pərəstiş etmirik.

Üçüncüsü, elə bir zat və qüdrətə pərəstiş olunur ki, təbiət və maddi varlıqların növündən olmasın. Bu zat və varlıq hər bir şeydən yüksək olub, bütün varlıqlara hakim olmalıdır; bütün yaranmışlarda dəyişiklik etmək qüdrətinə malik olub, mənəvi və maddi ehtiyaclarımızı ödəyə bilməlidir.

Nəhayət, bu ulu və müqəddəs Zat bütün varlıq aləminin tədbirini öz üzərinə götürməlidir; varlıqlardan və mövcudatdan ayrı olmamalı, bəşəriyyətlə, bütün yaranmışlarla dərin və qırılmaz tellərlə bağlanmalıdır; onların bütün sirlərini və ehtiyaclarını bilməlidir, dərd-qəmindən və istəklərindən xəbərdar olmalıdır. O, hər bir dində mövcud olan - xüsusi şərtlərə riayət olunduqda onları istəklərinə çatdırmalıdır. Beləliklə, aydın olur ki, dində boyun əymə və təzim hissi əslində varlıq aləminin mənşəyi olan məbud kimi pərəstiş və ibadət olunan yenilməz qüvvət və qüdrət sahibini müqəddəs sayıb ona təzim etməkdən ibarətdir. Burada belə bir sual qarşıya çıxa bilər. Bu qayda-qanunlar bütün ilahi və qeyri-ilahi dinlərə də aiddirmi?

Məlum olduğu kimi, bir çox ibtidai-xurafi dinlərdə daş, ağac, çay, dəniz, ulduz, quşlar və bu kimi digər şeylər müqəddəs sayılır və insanlar onlara pərəstiş edirdilər. Amma yuxarıda sadaladığımız xüsusiyyətlərin heç biri onlarda yoxdur.

Bu sualın cavabında demək lazımdır ki, belə ibtidai dinlərin ardıcıllarının fikirlərini, düşüncə tərzlərini tədqiq etdikdə məlum olur ki, bizim "totem" və ya "büt" adlandırdıqlarımızın heç birinə onlar heç vaxt müstəqil bir rəbb və məbud inancı ilə ibadət etməyiblər. Yəni, heç də ibtidai insanlar daş, ağac və s. şeylərə, onların həyatında və işlərində hansısa bir ehtiyaclarını ödəyə biləcək bir tərzdə əqidə bəsləməyiblər. Onlar öz səhv etiqadlarına görə bütün bunları uca və yenilməz qüdrətin feyz və rəhmət vasitəsi hesab edirdilər; güman edirlərmiş ki, bu əşyaları müqəddəsləşdirməklə və onlara təzim etməklə həqiqi Rəbbi özlərindən razı salar və yaxud onların vasitəsilə öz hacət və istəklərinə çatarlar. Onlar bu "totem" və "büt"ləri etiqad bəslədikləri həqiqi məbudun xüsusiyyətlənin təcəllisi kimi düşünürdülər.

Qurani-Kərimdə bütpərəstlərin məntiqi və onların bütləri müqəddəsləşdirmələrinin səbəbi barəsində belə oxuyuruq: "(Bütpərəstlər) dedilər: "Biz bunlara (bütlərə) yalnız Allaha yaxın olmaqdan ötrü pərəstiş edirik". Bu izahla əvvəldə dediklərimizi belə tamamlayırıq. Dinin iki əsas dayağı vardır:

1. Varlıq aləminin sahibinə etiqad - yəni öz yenilməz qüvvət və qüdrəti ilə varlıq aləmini idarə edənə etiqad.

2. Bu etiqaddan doğan tələblərə əməl etmək və onun mütləq varlıq sahibinə məbud, Rəbb adı ilə təzim və pərəstiş etmək - bu yolla onun razılığını qazanıb, maddi-mənəvi ehtiyaclarımızı təmin etmək.

**Seyid Əhməd**

# KÖVSƏR

## Peyğəmbər yadigarı

### ("Kövsər" surəsinin təfsiri)

اللّهمّ بفاطِمَة وَ أَبيها
وَ بَعلِها وَ بَنيها

***Əksər təfsirçilərin nəzərincə Kövsər surəsi Məkkə şəhərində nazil olub. Lakin bəziləri bu surənin Mədinə şəhərində nazil olduğunu güman edirlər. Belə bir fikir də yürüdülür ki, bu surə iki dəfə nazil olub; bir dəfə Məkkə şəhərində və bir dəfə də Mədinə şəhərində. Lakin Kövsər surəsinin nazilolma səbəbi barədə nəql edilən hədislər göstərir ki, bu surə Məkkə şəhərində nazil olub və «Məkki» surəsi adlanır.***

Bu surənin nazilolma səbəbini belə şərh edirlər: Bir gün əziz Peyğəmbərimiz (s) «Məscidül-Həram»dan çıxdığı vaxt müşriklərin başçılarından biri olan As ibn Vail ona yaxınlaşıb, söhbətə başladı.

Kəbə ətrafında əyləşən Qüreyş başçıları da uzaqdan bu səhnəni müşahidə edirdilər.

As ibn Vail onlara yaxınlaşdıqda soruşdular: «Kiminlə söhbət edirdin?»

O cavab verdi: «O «əbtər» kişi ilə».

Ərəblər oğlu olmayan şəxsə «əbtər» yəni, sonsuz deyirdilər. Əziz İslam Peyğəmbərinin oğlu Abdullah dünyadan getdiyi üçün müşriklər Peyğəmbərə (s) bu ləqəbi qoymuşdular. Kövsər surəsi nazil olub, Peyğəmbəri (s) firavan nemət və kövsərlə müjdələdi və onun düşmənlərini «əbtər» adlandırdı.

Tarixə əsasən əziz Peyğəmbərimizin (s) İslamın əzəmətli qadını Xədicədən (s.ə) Qasim və Tahir adlı iki oğlu var idi. Tahiri «Abdullah» da çağırırdılar.

Qasim də, Tahir də Peyğəmbər (s) hicrət etməmişdən qabaq Məkkədə ikən vəfat etdilər.

Bununla da Peyğəmbər (s) oğlan övladlarını itirdi və düşmənləri onu əbtər adlandırdılar. Peyğəmbərin (s) Mariyə Qibtiyyədən İbrahim adlı oğlu var idi və o, hicrətin səkkizinci ili dünyaya gəlmişdi. Lakin İbrahim də iki yaşına çatmamış vəfat etdi və Peyğəmbər (s) bu itgiyə çox qəmgin oldu.

Ərəblər oğlan övladını hər bir sahədə atanın davamçısı hesab edib, ona böyük əhəmiyyət verirdilər. Müşriklər elə güman edirdilər ki, Peyğəmbər (s) vəfat etdikdən sonra onun oğlan övladı olmadığı üçün gətirdiyi din süqut edəcək və buna görə çox sevinirdilər.

Nəhayət, Kövsər surəsi nazil oldu və onların xəyallarını puça çıxarıb, belə xəbər verdi: «Onun (Peyğəmbərin) düşmənləri əbtər olacaq! İslam dini və Quran hökmləri əsla süqut etməyəcək!»

Bu surədə Peyğəmbərə verilən müjdə bir tərəfdən İslam düşmənlərinin ümidlərini puça çıxarırdı, digər tərəfdən də bu təhqiramiz ləqəbi eşidən Peyğəmbərin qəmgin qəlbinə təskinlik verirdi.

«Kövsər» surəsini oxumağın fəziləti

Bu surəni oxumağın fəziləti barədə Həzrət Peyğəmbər (s) buyurub: «Bu surəni oxuyan şəxsi Allah-Taala Cənnət çaylarından axan su ilə sirab edər. Və (Qurban) bayramında kəsilən qurbanların, həmçinin Kitab-əhli və müşriklərin kəsdikləri qurbanların sayı qədər Allah-Taala ona savab yazar». («Məcməul-bəyan», 10-cu cild, 548-ci səh.)

«Kövsər» adı isə bu surənin birinci ayəsində işlənən sözdən götürülüb.

**KÖVSƏR SURƏSİ**

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ

Bağışlayan və mehriban Allahın adı ilə.

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ

1. Həqiqətən, biz sənə kövsər bəxş etdik!

فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ

2. Ona görə də Rəbbin üçün namaz qıl və qurban kəs!

إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

3. Həqiqətən, onun özü sonsuzdur!

Bu surə «Əz-zuha» və «İnşirah» surələri kimi bütünlüklə Peyğəmbərə olan bir xitabdır. Demək olar

ki, bu üç surənin nazilolma səbəbi baş verən kədərli hadisələr və düşmənlərin arası kəsilməyən tənələrinə görə əziz Peyğəmbərimizə təskinlik verməkdir.

Allah-Taala birinci ayədə buyurur:

«Biz sənə kövsər əta etdik!»

«Kövsər» sözünün kökü «kəsrət»dir.

«Kövsər» sözü sifət olub, mənası «firavan və bol nemət» deməkdir. Bəzən səxavətli şəxslərə də kövsər deyilir.

Bu ayədə «kövsər» sözü hansı mənada işlənilibdir?

«Hədislərin birində belə nəql olunur: Kövsər surəsi nazil olduqda Peyğəmbər (s) minbərə qalxıb, onu tilavət etdi. O Həzrətin səhabələri soruşdular: «Allah-Taalanın sənə bəxş etdiyi kövsər nədir?» Peyğəmbər (s) buyurdu: «Cənnətdə süddən ağ və (büllur) qədəhdən şəffaf bir çaydır. Bu çayın hər iki tərəfində dürr və yaqutdan günbəzlər vardır...» («Məcməul-bəyan», 10-cu cild, 549-ci səh.)

Başqa bir hədisdə İmam Sadiq (ə) belə buyurur: «Kövsər, cənnətdə bir çaydır ki, Allah-Taala, övladını itirdiyinə görə (Peyğəmbərin Abdullah adlı oğlu vəfat etmişdi) onu Peyğəmbərə bəxş etmişdir».

Kövsər sözünün mənası barədə təfsirçilər müxtəlif fikirlər irəli yürüdürlər ki, onlardan bir neçəsini nəzərinizə çatdırırıq:

1) Burada Peyğəmbərə aid olan Kövsər hovuzu nəzərdə tutulur və möminlər cənnətə daxil olduqları zaman o hovuzun suyundan içəcəklər. («Məcməul-bəyan», 10-cu cild, 549-ci səh.)

2) Burada Kövsər, Peyğəmbərliyə işarədir.

3) Kövsər, Qurana işarədir.

4) Kövsər, Peyğəmbərin dost və səhabələrinin çoxluğuna işarədir.

5) Kövsər, övladların çoxluğuna və nəslin davamına işarədir. Peyğəmbərin nəsli, qızı Fatimənin (s.ə) nəsli ilə davam etmiş və etməkdədir. Seyyidlər qiyamətədək Peyğəmbərin (s) mübarək vücudunun nişanəsidirlər.

6) Kövsər, bu surədə «şəfaət»in mövcudluğunu bildirir. Bu fikirdə olan təfsirçilər İmam Sadiqdən (ə) nəql olunan hədisə əsaslanıblar.

Fəxr Razi «kövsər» sözünün təfsirində on beş nəzəri qeydə almışdır.

Ümumiyyətlə, demək olar ki, kövsər sözü üçün deyilən təfsirlər bu geniş mənalı sözün kəsb etdiyi müxtəlif mənalardır. Bildiyiniz kimi «kövsər», «firavan nemət» mənasını ifadə edir və Allah-Taala da Peyğəmbərə (s) saysız nemətlər bəxş etmişdir. Bu sözün çoxsaylı təfsirinin hər biri də bu nemətlərdən birini vurğulayır. Lakin bu o demək deyildir ki, Peyğəmbərə (s) bəxş olunan nemətlər yalnız təfsirlərdə qeyd olunan nemətlərlə məhdudlaşır. Xülasə hər bir cəhətdən Allah-Taalanın Peyğəmbərə (s) bəxş etdiyi nemətlər, hətta o Həzrətin döyüşlərdəki qələbələri və ya hər bir dövrdə Quran və İslamı yayan və mühafizə edən onun ümmətinin alimləri də «firavan nemət»ə daxildirlər.

«Kövsər» sözünün müxtəlif təfsirləri, xüsusilə də yaxın və uzaq gələcəyə aid olan mənaları qeybi xəbərlər sırasına daxildir və əziz İslam Peyğəmbərinin (s) dəvətinin haqq olduğunu bildirir. Başqa sözlə desək, Allah-Taala «Kövsər» müjdəsini Peyğəmbərinə (s) verdiyi vaxt təfsirlərdə deyilən mənalar hələ zahir olmamışdı.

«Kövsər!» Bu böyük nemət üçün şükr etmək lazımdır. Hərçənd ki, yarananın şükrü Yaradanın bəxş etdiyi nemətin əvəzini verə bilməz. Hətta şükr etməyi bacarmağın özü Allahın bəxş etdiyi nemətlərdən biridir. İkinci ayədə oxuyuruq: «Ona görə də Rəbbin üçün namaz qıl və qurban kəs!»

«Nemətləri bəxş edən odur! Namaz və qurban kimi ibadi əməllər də yalnız Ona məxsusdur».

Xüsusilə də ayədəki «Rəbb» sözü bu mənanı bir daha təsdiqləyir. Rəbb, idarə edən və himayə edən deməkdir. Bu məna isə nemətlərin davam edəcəyini bildirir.

Bu ayədə bir daha ibadətin yalnız Rəbb olan Allaha məxsus olduğunu vurğulamaqda məqsəd, nemətlərin Allah tərəfindən olduğunu bilən, lakin bütlər qarşısında səcdə edib, qurban kəsən müşriklərə bir növ xəbərdarlıqdır.

Deməli, ayədəki «li-rəbbikə» sözü Allaha xatir ibadət etməyin zəruriliyini bildirir. Təfsirçilərin əksəriyyətinin nəzərincə ayədə buyurulan namaz və qurban, Qurban bayramının namazı və qurbanlığıdır. Lakin ayəyə diqqət yetirdikdə onun ümumi məna ifadə etdiyini görürük. Əlbəttə, Qurban bayramının namazı və qurbanlığı bu ayənin kəsb etdiyi mənalardan biridir.

Felin əmr formasında olan «vənhər» (yəni qurban kəs!) sözünün kökü «nəhr»dir. Bu ifadə ərəb dilində yalnız dəvənin kəsilməsi üçün işlədilir.

Ərəblər dəvənin çoxcəhətli istifadəsi üçün ona böyük əhəmiyyət verirdilər. Odur ki, dəvəni qurban kəsmək böyük fədakarlıq hesab olunurdu. Burada «vənhər» ifadəsinin iki təfsirini nəzərinizə çatdırırıq:

1) «Vənhər», namaz qılarkən üzü qibləyə dayanmağı göstəriş verir. «Nəhr» sözünün leksik mənası «hülqum»dur. Lakin ərəblər bu sözü «qarşı-qarşıya dayanmaq» kimi də işlədirlər. Məsələn, «mənazilunə tətənahəru», yəni, bizim evlərimiz qarşı-qarşıya dayanıb.

2) Bu söz namazın təkbirlərini deyərkən əlləri hülqum və üz səviyyəsində qaldırmağı bildirir. Çünki hədislərin birində oxuyuruq: Bu surə nazil olduqda Həzrət Peyğəmbər (s) cənab Cəbrayıldan soruşdu: «Allahımın mənə göstəriş verdiyi «nuhəyrə» nədir?» («Nuhəyrə» sözünün mənası «ayın axırıncı günü» deməkdir. Ayın axırıncı günündə fərd yeni ayı qarşılamaq ərəfəsindədir. Odur ki, Peyğəmbərin sözünün mənası belə olacaq: «Allahımın mənə olan «yeni ayı qarşılamaq» göstərişi nə deməkdir?») Cəbrayıl buyurdu: «Bu «nuhəyrə» deyil. Allah-Taala sənə göstəriş verir ki, namazın təkbirətul-ehramını deyərkən əllərini yuxarıya qaldır. Həmçinin rükuya gedərkən, rükudan və səcdədən qalxarkən təkbir dediyin vaxt əllərini yuxarıya qaldır. Çünki bizim və yeddi göyün mələklərinin namazı bu qaydadadır. Hər bir şeyin özünə xas zinəti vardır. Namazın da zinəti təkbirləri deyərkən əlləri yuxarıya qaldırmaqdır». («Məcməul-bəyan», 10-cu cild, 548-ci səh.)

Bu ayənin təfsirində İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq ki, İmam Sadiq (ə) əllərini qaldırıb buyurdu: «Ayədə buyurulur ki, namaza başlayanda əlləri yuxarıya qaldırın və bu vaxt əlin içi qibləyə tərəf olmalıdır». («Məcməul-bəyan», 10-cu cild, 548-ci səh.)

«Vənhər» ifadəsinin bu iki təfsirindən birincisi daha məqsədəuyğundur. Çünki bu ayədə yalnız Allah üçün namaz qılıb qurban kəsmək əmr olunubdur və məqsəd,



Allahdan qeyrisinə ibadət edib, qurban kəsən müşriklərin əməllərinin yanlış olduğunu göstərməkdir. Lakin bu ayənin kəsb etdiyi mənalar və onun təfsiri barədə nəql olunan hədislər heç də ziddiyyətli deyildir. Bir daha xatırlayırıq ki, bu ayə də bir çox başqa ayələr kimi geniş mənaya malikdir və bütün bu mənaları əhatələyir.

Müşriklərin Peyğəmbərə verdiyi ləqəbə görə Allah-Taala üçüncü ayədə buyurur: «Düşmənin özü sonsuzdur!»

«Şaniə» sözünün kökü «zərəban» vəznində olan «şənəan»dır. «Şənəan» düşmənçilik, kin bəsləmək, habelə bu sifətlərə sahib olan şəxsə deyilir.

«Əbtər» isə «quyruğu kəsilmiş heyvana» deyilir. İslam düşmənləri də Peyğəmbərə (s) hörmətsizlik məqsədilə bu ləqəbi ona qoymuşdular.

Həmçinin, bu surənin nazilolma səbəbində dediyimiz kimi, Qureyş tayfasının müşrik başçıları Peyğəmbəri sonsuz güman edib onun ölümünü və bununla da İslam dininin süqutunu gözləyirdilər.

## İncəliklər

**1. «Fatimə» (s.ə) və «Kövsər»**

Qeyd etdiyimiz kimi «kövsər» sözü geniş mənaya malik olub, «firavan və bol nemət» deməkdir. Bu sözün kəsb etdiyi mənalar çoxsaylıdır. Lakin Cəfəri məzhəbinin böyük təfsir alimləri Həzrət Fatimeyi-Zəhranı bu sözün ən aydın nümunəsi hesab edirlər. Onlar, surənin nazilolma səbəbinə əsaslanaraq bildirirlər ki, müşriklər Peyğəmbəri sonsuz adlandırırdılar, Allah-Taala da onların bu yalnış düşüncələrini rədd edərək, buyurdu: «(Ey Peyğəmbər!) Biz sənə kövsər bəxş etdik».

Peyğəmbərin də nəsli onun əziz qızı Həzrət Fatimə (s.ə) vasitəsilə davam etdiyi üçün bu «firavan nemət» Fatimeyi-Zəhraya işarədir.

Bu nəslin övladları təkcə Peyğəmbərin nəslini deyil, o Həzrətin dinini də davam etdirdilər. Onlar İslamın dəyərlərini qoruyub, saxladılar və nəsildən-nəsilə ötürdülər. Bu bəyanda yalnız məsum imamları nəzərdə tutmuruq. Fatimə övladları bütün dünyaya yayılmışdır və onların içindən İslamı qoruyub, saxlamaq naminə fədakarlıq göstərən böyük din alimləri, tanınmış hədisçilər və təfsirçilər, böyük rəhbərlər çıxmışdır.

Burada Fəxr Razinin «Kövsər» sözü barədəki müxtəlif təfsirlərindən birinə nəzər salaq:

Üçüncü nəzər budur ki, bu surə, övlad sahibi olmadığına görə Peyğəmbərə tənə vuran müşriklərə etiraz məqsədilə nazil olubdur. Odur ki, Kövsər surəsi belə bir məna kəsb edir: «Allah-Taala Peyğəmbərinə elə bir nəsil bəxş edəcək ki, o, qiyamətədək davam edəcəkdir».

Tarixə nəzər salın! Görün nə qədər seyyidi Peyğəmbər övladını - şəhadətə yetiriblər. Lakin yenə də dünyanın hər bir guşəsində seyyidə rast gəlirsən.

Amma İslamın qatı düşməni olan Bəni-Üməyyə tayfasından kimisə təqdim edə bilərsiz!»

**2. Kövsər surəsinin möcüzəsi:**

Bu surədə üç qeybi xəbər mövcuddur:

1) Peyğəmbərə (s) «firavan nemət» müjdəsi verilir. (Doğrudur ki, «ətəynə» feli keçmiş zamandadır, lakin ərəb dilinin qrammatikasına əsasən bəzən fel keçmiş zaman formasında yazılsa da qəti gələcək zamanı bildirir.)

Bir qədər öncə qeyd etdiyimiz kimi bu «bol nemət» Peyğəmbərin (s) əldə etdiyi bütün qələbələrə və müvəffəqiyyətlərə şamil olur. Lakin «Kövsər» surəsi Məkkədə nazil olduğu vaxt bütün bunları əvvəldən təxmin etmək mümkün deyildi.

2) Peyğəmbərin düşmənləri «əbtər» və sonsuzdur. Bu qeybi xəbər də gələcək zamanda baş verdi. O Həzrətin düşmənləri elə darmadağın olublar ki, onlardan heç bir əsər-əlamət qalmayıbdır. Belə ki, Bəni-Üməyyə və Bəni-Abbas, Peyğəmbər (s) və onun övladları ilə mübarizəyə qalxdıqları dövrdə nəsillərinin sayı-hesabı yox idi. Lakin bu gün onların nəslindən ya heç kim qalmayıb, ya qalsa da onları heç kim tanımır.

3) Nə üçün Allah-Taala barədə fel cəm şəklində yazılır?

Diqqətə layiqdir ki, «İnna ətəynakəl kəvsər» ayəsində və Quranın bir çox başqa ayələrində Allah-Taala, «mən» deyil, «biz» deyə buyurur: «Həqiqətən, biz sənə firavan nemət əta etdik!»

Cavab budur ki, bu kimi ifadələr əzəmət və qüdrəti bildirir. Çünki başçı və rəhbər özü barədə danışdığı vaxt, təkcə özünü deyil, tabeçiliyində olanları da nəzərdə tutur. Bu isə qüdrət, əzəmət və onun əmrlərinə itaət edən məmurların varlığını bildirir.

Xülasə «ətəynakə» ifadəsi bildirir ki, Allah-Taala artıq «kövsəri» yəni «firavan neməti» Peyğəmbərinə bəxş etmişdir. Bu, Peyğəmbər (s) üçün böyük bir müjdə idi. Allah-Taala İslam düşmənlərinin tənələri qarşısında Peyğəmbərinə təskinlik verir və onu ruhdan düşməkdən qoruyur. Peyğəmbərinə müjdə verir ki, bütün nemətlərin mənbəyi olan Allah, «firavan neməti» ona bəxş etmişdir.

İlahi! Peyğəmbərinə bəxş etdiyin bu «firavan nemət»in bərəkətindən bizə də bəxş et!

İlahi! Özün şahidsən ki, biz Sənin Peyğəmbərinin və onun pak nəslinin aşiqiyik. Bizi qiyamət günü onların sırasında həşrə qaldır!

İlahi! Sənin Peyğəmbərin (s) və onun gətirdiyi din əzəmətlidir. Daim onun əzəmətini və şövkətini artır!

Ayətullah Məkarim Şirazi
«Təfsiri Nümunə»dən

# CAVABI OLMAYAN 15 SUAL

***Mübarək "Tur" surəsində 15 dənə sual zikr olunmuşdur. Bunlar danlaq və ilzam üçündür ki, cavabları yoxdur. Məsələn bəzən sizlərdən biri kağız səhifəsini uşağın əlinə verirsiniz ki, yazsın. Sonra evə qayıdanda görürsünüz ki, əyri-əyri xətlər çəkmişdir. Ona deyirsiniz: Sənə qələm vermədimmi? Sənin üçün nümunə yazmadımmı ki, bu cür pis xətlərlə yazmısan? Bunlara cavabı olmayan suallar deyilir. Allah-Taala on beş dənə bu cür suallarla buyurur: "Yoxsa səbəbsiz yerə yaradıblar?! Yoxsa özünüz özünüzü yaradıbsız?!"***

Bəhlul barəsində yazıblar ki, günlərin birində qəbristanlıqda oturub bir insan kəlləsinin sümüyünü tapmışdı. Onu torpaqla doldurub sonra boşaldırdı. Bir nəfər gəlib soruşdu: Nə üçün bu cür edirsən? Dedi: İstəyirəm bildirəm ki, bu dünyada bu qədər iddialar edən bəşərin beyni necə də torpağa dönmüşdür!

Bir neçə il bundan qabaq Şiraz şəhərinin sursat anbarına od düşmüşdü. Hamı Allahın dərgahına pənah apardı, hətta ömrü boyu bir namaz qılmayan bir dəfə "ya Allah" deməyən kəslər də. Nədən pənah aparmışdılar.?

Bir dünyəvi oddan (vay olsun axirət əzabından!), özü də ki, şəhərə çatması sadəcə ehtimal verilən bir oddan!

"Aya Pərvərdigarının fəzl və rəhmət xəzinələri onların yanındadırmı ki, hər kəsə istəsələr versinlər? Yaxud ilahi elmlər xəzinəsi onların yanındadır ki, kiminsə nübüvvət məqamına layiq olduğunu bilsinlər. Aya onlar bütün əşyalara hakim və qalibdirlər ki, bütün şeylər onların istəkləri altına gəlsin. Belə ki, hər nə istəsələr etsinlər, hər şəxsi istəsələr risalət məqamına seçsinlər."

"Xəzain"–xəzinənin cəmidir və mənası əsil maddə və külldür. Qeyd etmək lazımdır ki, aləmdə olanların hamısı–müxtəlif gözəlliklər, nemətlər, qüdrətlər, hikmətlər, insan və heyvan ruzilərinin xəzinələri Allahın yanındadır ki, tədriclə müəyyən qədər də aləmdə vücuda gəlirlər. Belə ki, "Hicr" surəsində buyurub:

"Və elə bir şey yoxdur ki, onun xəzinələri Bizim yanımızda olmasın və Biz yalnız məlum qədərdə nazil edərik."

Bu mətləbin şərhi və təfsilatı uzun, başa düşülməsi də müəyyən qədər çətin olduğundan, ümumi camaatın başa düşməsi üçün, hər ikisini–ilahi batini və zahiri xəzinələri qeyd edirik.

Əgər insan öz ruzisində, habelə bitkilərdən, heyvan ruzisində bir az fikirləşsə başa düşər ki, onların xəzinəsi və maddəsi su, hava, torpaq və enerjidən ibarətdir. Elmin dediyi kimi oksigen, hidrogen, fosfor, dəmir, azot və s. Aydındır ki, əgər bəşəriyyət bir yerə yığılsa, bu xəzinələrə yol tapa bilməzlər ki, onları artırsınlar. Yaxud onları tərkib edərək nəbatatı və paxlaları düzəltsinlər. Deməli, görəsən bu bəşər bütün bu xəzinələri qüdrət əli ilə yaradan bir Allah müqabilində müti" və zəlil olmamalıdırmı və Ona pərəstiş etməməlidirmi? Başqa bir nümunəsi elm və hikmətdir. Bəli, aləmlərin Pərvərdigarını tanımaq və Onun bütün adlarını, sifətlərini; xilqət aləminin sirlərinə, hikmətlərə yol tapmaq, bəşərin səadət və kamalını, məsləhətli işlərini tanımaq, məad və əbədi həyatı tanımaq, ölümdən sonrakı və s. şeyləri tanımaq. Xülasə şəkildə demək olar ki, məqsəd mülk və mələkut aləminə yol tapmaqdır. Şəkk yoxdur ki, heç bir bəşər bu ilahi xəzinəyə yol tapa bilməz, amma Allahın fəzl və kəramindən bəhrələnərək bu ilahi xəzinələr inayət olunan kəslərdən başqa. Əlbəttə, ilahi ne"mətlərin də dərəcələri vardır. Onun ən yüksək mərtəbəsi Həzrət Mühəmməd ibni Abdullahın (s) mübarək vücududur ki, bütün elm və hikmət xəzinələrini Allah onun mübarək qəlbində qərar vermişdir. Necə ki, Əli (ə) o Həzrətin vəsfində belə buyurur:

"Elə ki, Allah-Taala öz bəndəsi Mühəmmədi seçdi və onun şərif qəlbini öz elmi xəzinələri qərar verdi və onu peyğəmbərliyə seçdi, heç bir bəşər bunun müqabilində e"tiraz və imtina etmək haqqı yoxdur. Çünki, Allah elminin xəzinəsi onların əlində deyil. Allahın yanındadır. O da bunları Həzrət Mühəmmədə (s) vermişdir. Gərək bəşər övladı Allahın öz Peyğəmbərinə verdiyi ilahi elmlərdən istifadə edib öz səadətlərinin yolunu tapsın. Kafirlərin, müşriklərin və Peyğəmbəri inkar edənlərin halı doğurdan da qəribədir ki, onlardan bəhrələnmək yerinə müxalifətə qalxdılar, düşmənçilik və müharibə etdilər. Doğrudan da bu müşriklər nə deyirlər? Allah bu ayədə buyurur ki: Məgər sənin Pərvərdigarının xəzinələri onun yanındadırmı? Yaxud Onun zahiri və batini xəzinələri siz camaatın yanındadır ki, özünüzü aləmlərin Pərvərdigarına ehtiyaclı bilmirsiniz və Ona pərəstiş etmirsiniz və Allah demirsiniz? Yox belə deyil, əgər Allah öz nemət qapılarını tamamilə bağlasa nə olar? Yazırlar ki, 1297-ci hicri ilində (80 il öncə) Şiraz şəhərində 7 il qəhətlik oldu. Camaat çörək tapa bilmədi. Təkcə qəhətlik deyil sel, zəlzələ, quraqlıq, yoluxucu xəstəliklər yayılmağa başladı. O vaxt məlum olur ki, camaatın vəziyyəti necə oldu. Deyirlər bir nəfər Allahın işlərinə həyasızcasına dəxalət edirdi. Ona deyəndə ki, əgər Allah çeşmələri qurutsa suyu haradan gətirəcəksən? O dedi: Bunun ki, bir çətinliyi yoxdur; bel və külüng gətirib yeri qazıb su çıxardaram. Sübh duranda gördülər ki, gözünün suyu quruyubdur. Hər təbibə müraciət etsələr də, əlacı olmadı. Yəni elə bir Allah ki, sənin gözünün suyunu quruda bilir, sənin gözündən daha pis çeşmələrin suyunun qurudulması necə? Ondan qorxmalısan, özünü Ondan ehtiyacsız bilməməlisən.



# SİRATIN MƏRHƏLƏLƏRİNDƏ NƏLƏR SORULACAQ?

**SİRATDAN KEÇMƏK ÜÇÜN ƏLİ (Ə) VİLAYƏTİNİN BƏRATI (QƏBZİ)**

Sünnü və şiə hədislərində vardır ki, həmin dolamada başqa bir dayanacaq Əliyyibni Əbutalib (əleyhissalam) vilayətidir. Təfsirdə buyurulur: "Onlara xəbərdarlıq edin ki, Əli (əleyhissalam)-la dostluqları barədə soruşacaqlar."

Məşhur sünnü alimi Təbəri Həzrət Peyğəmbərdən (s) rəvayət edir ki, Həzrət buyurdu: "Ya Əli, hər kəsdə sənin vilayətinin bəratı olarsa, Siratdan keçər."

**İKİNCİ DOLAMADA NAMAZ SORĞUSU**

İlk dolamada Əli (əleyhissalam) vilayəti, əmanətin qaytarılması, qohumlarla əlaqədən (sileyi-rəhm) ötüb, ikinci dolamada namaza çatırıq. Burada yövmiyyə, ayət, qəza və s. vacibi namazlardan soruşular. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Namazı puç edənlər mənim şəfaətimə (şəfaət-Qiyamət günü günahların bağışlanması üçün Allah yanında vasitəçi olmaq-red.) yetməyəcəkdir."

İmam Sadiq (əleyhissalam)-ın son vəsiyyəti budur ki, "Namazı yüngül sayanlara bizim şəfaətimiz çatmayacaqdır."

Əgər sübh namazını günorta, günorta namazını axşama yaxın qılanlar belədirsə, namaz qılmayanların halı necə olar?! Rəvayətə görə, namazı tərk edənlər təşnə (susuz) ölər və qəbirdən təşnə baş qaldırar.

**UŞAQLARI NAMAZA SÖVQ EDİN**

Təkid etməli olduğum bu mövzunu hamı eşitsin və başqalarına da desin-övladlarımız qarşısında məsuluq ki, onlara yetkinlikdən (həddi-büluğa çatmamışdan) qabaq namaz öyrədək. Uşaqlar elə tərbiyə olunmalıdırlar ki, namazın xeyirli gələcəyinə inansınlar. Ata-ananın çalışması sayəsində uşağın əməllərinin savabı uşaq yetkinliyə çatanadək ata-anaya verilir. Uşaq yetkinliyə çatdıqdan sonra da xeyrə səbəb olduqlarından, ata-ana ilahi lütfə nail olarlar.

**UŞAĞIN "BİSMİLLAH" DEMƏSİ ATANIN ƏZABINI GÖTÜRƏR**

Bir zaman Peyğəmbər (s) öz səhabələri ilə qəbristanlığın yanından keçərkən "qəbir sahibi əzabdadır, tez keçin!" deməsini eşitmisiniz. Bir il sonra həmin yerdən keçərkən əzab əsəri görməyən Həzrət "Pərvərdigara, artıq bu meyyitə əzab olunmur, niyə?" deyə soruşdu. Nida yetdi ki, bu kişinin bir oğlu vardı, ölümdən sonra o uşağı məktəbə göndərdilər, ustadı ona "bismillahir-rəhmanir-rəhim" öyrətdi, oğlu bizi Rəhman və Rəhim kimi xatırladığından atasından əzabı götürdük.

Bəli, şəri vəzifələrimizdən biri də yaxşıya dəvət (əmr be məruf) və pisdən çəkindirməkdir (nəhy əz münkər). Bu vəzifənin ilk mərtəbəsi qadını, uşağını, sonra başqa qohum və yaxınlarını dəvət etməkdir.

**ÜÇÜNCÜ DOLAMA XUMS VƏ ZƏKATDIR**

Əgər hər kəsin boynunda bir dirhəm xums və ya zəkat olarsa, üçüncü dolamada qarşısı kəsilər. Zəkat verməyənlərə aid rəvayətlər çoxdur, o cümlədən: (Zəhəri daşmış əjdahanın tükləri pırtlaşar.) Allah belə bir əjdaha qərar verər ki, onun boynuna dolanar. Digər bir rəvayətdə buyurulur: Məhsulunun zəkatını verməmiş sahibin torpaqları yeddi qat boyunbağı tək boynuna asılar. Eləcə də, Həzrət İmam Zaman (əleyhissalam) zəkat mənimsəyənləri qətlə yetirər.

Məbada, kimsənin boynunda bir dirhəm zəkat olsun və qızıl, gümüş, sikkə toplayıb, zəkatını ödəməsin! Qiyamət günü həmin dinar və dirhəmi qızdırıb, onun kürəyinə dağ basarlar. ("Tövbə" surəsi, ayə 35).

Bilin ki, malın zəkatı ilə bədənin zəkatı arasında fərq yoxdur. Fitr bayramının axşamı (orucluğun son axşamı) bədənin zəkatı (fitrə) maldan ayrılmalıdır.

**İNSANIN YARDIMÇISI, ŞƏFİSİ ONA DÜŞMƏN OLAR**

Xumsa gəldikdə isə, xums sorğusunun çətinliyi barədə rəvayətlər çoxdur. "Kafi"dən bir rəvayətə istinad edirik. Həzrət Sadiq (əleyhissalam) buyurmuşdur: "Qiyamətdə insanların ən çətin vaxtı o zamandır ki, xums müstəhəqləri (dünyada xums veriləsi məzlumlar) ayağa

qalxıb, öz haqqlarını tələb edərlər. Çox vaxt bu günahın çətinliyində şəfaət edəsi şəxslər adama düşmən olar.

### DÖRDÜNCÜ DOLAMADA ORUC SORĞUSU

Dördüncü dolamada mübarək Ramazan ayının orucundan sual verilər: "Oruc, Cəhənnəm odu qarşısında sipərdir" buyurulub. Oruc tutmuş şəxs üçün iki xoşluq vardır: birincisi iftarda, oruc açılan zaman xüsusi fərəhdə olar; ikincisi, ölüb Siratdan keçərkən Allahla görüşə çatanda xoşhal olar.

### BEŞİNCİ DOLAMADA HƏCC SORĞUSU

Həyatında həccə getmək üçün şərait yaranan və həccə getməyən şəxsin qarşısı kəsilər. İki dəstəyə ölüm zamanı deyilər: "Yəhudi və nəsrani kimi ölün!" Bunlardan biri zəkat verməyənlər, digəri həcci tərk edənlərdir. Bunu demək kifayətdir ki, həccdən boyun qaçıranları Allah-Taala Quranda kafir adlandırıb. Bu barədə bəhs açmıram, çünki etiqad bəhsindən kənara çıxarıq.

### ALTINCI DOLAMA TƏHARƏTDİR

İbni Abbasdan rəvayətdə nəql olunub ki, "təharət" dedikdə dəstəmaz, qüsl, təyəmmüm nəzərdə tutulur. (Dəstəmaz namazdan əvvəl, qüsl və təyəmmüm isə cinsi yaxınlıq, aybaşı və s.dən sonra xüsusi qayda ilə icra edilən vacib əməldir.) Xüsusilə, qadınların vaxtlı-vaxtında qüslə diqqətlə yanaşması zəruridir. Əgər etinasızlıq olarsa, Siratın altıncı dolamasında soru-şulacaqlar. Əvvəlcə dediyimiz kimi, qəbir sıxıntısına düşməyin bir səbəbi də murdarlıqdan çəkinməməkdir.

### YEDDİNCİ DOLAMA ZÜLMDÜR

Bəzən bu dolama "ədl", bəzən də "xalqın haqqı" (həqqün-nas) adlandırılmışdır. Quranda "mirsad" kimi də təbir olunmuşdur (mirsad-yəni, pusqu). Əgər insan bir kəsə nahaq sillə vurmuşdursa, beş yüz il orada saxlanılar, sümükləri parçalanar, əzilər.

Ey dükançı, şagirdini vurmağa nə haqqın var?!

Ey müəllim, hansı şəri əsasla uşaqları tənbeh edib vurursan, hətta bədənində yeri də qalır?!

Ey kişilər, nə üçün qadınlarınızı vurursunuz?! Ərin nə haqqı var ki, qadınına əl qaldırsın?!

Əlbəttə, bəzi istisnalar vardır. Amma bu hallara az təsadüf olunur və mövzumuzdan xaricdir.

# ELM ÜSTÜNDÜR YA MAL-DÖVLƏT?

***On nəfər öz aralarında məsləhət edib qərara gəldilər ki, ayrı-ayrılıqda Həzrət Əlinin (ə) yanına gedib ona eyni sualı versinlər. Əgər Əli (ə) hamının sualını eyni cür cavablandırsa, deməli, onun elmi azdır və imamətə layiq deyil.***

Yox, əgər hər kəsə o birindən fərqli cavab versə, deməli, Peyğəmbərin: "Mən elmin şəhəriyəm, qapısı isə Əlidir" kəlamı doğrudur.

Birinci adam Həzrət Əlinin (ə) yanına gəlib soruşdu: "De görüm, elm daha üstündür ya mal-dövlət?". Həzrət cavab verdi: "Elm mal-dövlətdən üstündür. Çünki elm peyğəmbərlərin mirasıdır. Mal-dövlət isə fironun, Qarunun və Şəddadın mirasıdır".

İkinci adam da gəlib eyni sualı verdi. Əli (ə) onun sualını belə cavablandırdı: "Elm maldan üstündür. Çünki elm səni qoruyar, mal-dövləti isə sən özün qorumalısan".

Üçüncü adamın sualına imamın cavabı belə oldu: "Elm mal-dövlətdən üstündür. Çünki alimin dostları çox olar, sərvətlinin isə düşməni".

Dördüncü adam da elmin yoxsa sərvətin üstün olduğunu soruşanda Əli (ə) buyurdu: "Elm sərvətdən üstündür. Çünki elm xərcləndikcə (başqalarına öyrədildikcə) çoxalar, sərvət isə xərcləndikcə azalar".

Beşinci adam eyni sualla müraciət edəndə İmam belə cavab verdi: "Elm sərvətdən üstündür. Çünki varlı adama paxıl və simic deyirlər. Amma elmli adama ehtiram göstərirlər".

Altıncı adamın sualının cavabı bu şəkildə oldu: "Elm maldan üstündür. Çünki oğrular malı apara bilərlər, elmi isə heç kim səndən oğurlaya bilməz".

Yeddinci adam öz sualının cavabında Əlidən (ə) bunu eşitdi: "Elm sərvətdən üstündür. Çünki zaman keçdikcə mal köhnəlir, çürüyür ya paslanır, dəyərdən düşür. Amma elm üçün bu təhlükə yoxdur".

Səkkizinci adamın cavabı bu şəkildə verildi: "Elm daha yaxşıdır. Çünki mal-dövlət yalnız bu dünyada insanla birlikdə olar və ona xeyir verər. Amma elm isə həm bu dünyada, həm də axirətdə insana fayda gətirər".

Doqquzuncu şəxsin cavabı da o birilərdən fərqli oldu: "Elm mal-dövlətdən üstündür. Çünki mal-dövlət insanın qəlbini daşlaşdırar, elm isə yumşaldar".

Nəhayət, onuncu adam elmin yoxsa malın üstün olduğunu soruşanda Həzrət Əli (ə) buyurdu: "Əlbəttə, elm daha üstündür. Çünki mal-dövlət öz sahibinə təkəbbür və mənəm-mənəmlik gətirər, hətta bəzi sərvətlilər allahlıq iddiası edərlər. Amma elm adamı təvazökar və başıaşağı olar".

Beləcə, Həzrət Əli ibn Əbu Talib (ə) eyni sualın cavabını on fərqli şəkildə verdi.



# AĞAC

## QURAN AYƏLƏRİNDƏ

***Ağac Allahı tanıma ayəsi, ilahi qüdrətin bənzərsiz nişanələrindəndir. Ağac təbiət kitabında müxtəlif forma və fərqli şəkillərdə görsənən tovhid ayələrini özündə toplayan bir surədir. Necə ki, Qurani-kərimin hər bir surəsi qısa və uzun olmasından asılı olmayaraq Allahın sonsuz elm və hikmətinin bir nişanəsidir, hər bir ağac da Onun qüdrət, bacarıq və elminin bir ayəsidir.***

Ağacdan danışılan ayələrə diqqət etdikdə onları bu başlıqlar altında qruplaşdırmaq olar:

### Ağac və Allahı təsbih etmə

Qurani-kərimin bildirdiklərinə əsasən yaradılış aləmində yoxluqdan vücuda gələn və varlıq libası geyən hər bir şey hal və dil ilə müqəddəs ilahi zatı təsbih, təqdis və sitayişlə məşğuldur. Lakin biz insanlar maddiyyat hasarları daxilində bir növ həbs olunduğumuzdan və öz maddi ehtiyaclarımızı təmin etməyə başımız qarışdığından (təəssüf ki, bu bəzən günah və Allaha itaətsizliklə yanaşı olur) məxluqatın Allahı davamlı zikr etməyini dərk edə bilmirik. Allah-təala buyurur:

"Elə bir şey yoxdur ki, Onu təsbih və sitayişlə məşğul olmasın. Lakin siz onların təsbihini dərk etmirsiniz"

("İsra" surəsi, ayə 44).

Bu və buna bənzər onlarla ayəyə diqqət etməklə belə bir nəticəyə gəlirik ki, "ağac" da varlıq aləminin bir üzvü kimi başqa məxluqlarla birlikdə gecə-gündüz Allahı təsbih və Ona sitayiş edir.

Müfəssirlər arasında mövcudatın təsbihinin necəliyi barədə müxtəlif nəzərlər mövcuddur. Bəziləri təsbihin hal, digərləri isə dil olduğu fikrindədirlər. Əllamə Təbatəbainin nəzərinə görə isə bütün mövcudatın təsbihi həqiqi və dil ilə olan təsbihdir.

### Ağac və Allaha səcdə

"Həcc" surəsinin 18-ci ayəsində oxuyuruq:

"Məgər görmürsən ki, göylərdə və yerdə olan hər bir kəs, günəş, ay, ulduzlar, dağlar, ağaclar... və insanların bir çoxu Allaha səcdə edirlər".

Bu ayədə, həmçinin "Rəhman" surəsinin 6-cı ayəsində mövcudatın Allahın müqəddəs zatı qarşısında səcdə etməsindən söhbət açılır və "ağac" da bu səcdə edənlərdən biri kimi qeyd olunur.

### Ağac - Allahın qüdrət nişanəsi

Biz hamımız ağaclara baxanda hər şeydən əvvəl onun zahiri gözəlliyinə, yarpaq və meyvələrinə diqqət yetiririk. Çox az hallarda bir kəs bu zahiri pərdənin arxasına keçərək məsələnin mahiyyətinə və həqiqətinə varır. Aqil insanın nəzərində yaşıl ağac yarpağından daha qəribə və heyrətamiz, yaşıllıq və həyata səbəb olan başqa bir şey yoxdur. Ona görə də mübarək Nəml surəsinin 60-cı ayəsində göylərin və yerin yaradılması, yağışın səmadan endirilməsinə işarə edildikdən sonra bostan və bağların necə meydana gəlməsinə toxunulur və bu mühüm məqam vurğulanır ki, ey insanlar ağaclarda həyatın yaranmasının necəliyinə diqqət yetirin və bilin ki, əgər Allah tərəfindən həyatverici qüvvə olmasaydı, sizlər heç vaxt onları becərib məhsullarından faydalana bilməzdiniz.

Ağacların becərdilib böyüdülməsində biz insanların işi toxumu torpağa əkmək və suvarmaqdır. Amma o toxumun daxilində həyatı yaradan, günəş işığı, yağışın həyat bəxş edən damlaları və torpağın zərrələrinə onu inkişaf etdirmək göstərişini verən isə yalnız Allahdır.

### Quranda ağacdan təmsil üçün istifadə olunması

Allah-təala bəzi mənəvi və təbiətüstü həqiqətləri anlatmaq üçün Qurani-kərimin bir çox ayələrində təmsil yolundan istifadə etmişdir. Təmsil üçün istifadə olunan varlıqlardan biri də ağacdır. "İbrahim" surəsinin 24-cü ayəsində oxuyuruq:

"Məgər (qəlb gözü ilə) Allahın necə məsəl çəkdiyini görmədin? Pak kəlməni (tovhidi) kökü (yerdə) möhkəm, budağı (isə) göydə olan pak ağaca (bənzədib)".

Bu mübarək ayədə "pak kəlmə" möhkəm kökü olan sağlam, bol meyvəli, yarpaqlı ağaca bənzədilmişdir ki, budaqları səmaya doğru ucalıb bar vermə fəsli çatdıqda meyvələrinin bolluğu hər görənin diqqətini cəlb edib heyrətə gətirir.

"Pak kəlmə"nin nədən ibarət olması barədə müfəssirlər arasında müxtəlif nəzərlər mövcuddur. Əllamə Təbatəbainin nəzərinə görə "pak kəlmə" bəşər qəlbinin dərinliklərində kökü olan haqq əqidələrdən ibarətdir.

Həmin surənin 26-cı ayəsində isə "pis kəlmə" "pis ağac"a bənzədilmişdir. Əllamənin nəzərinə görə "pis kəlmə" dedikdə məqsəd küfr və şirkdir ki, sabit kökü olmayan, şərr və zərərdən başqa bir bar verməyən pis ağaca oxşadılmışdır.

"Pis (küfr və şirk) kəlmə(si)nin məsəli isə yerdən qopardılmış və əsla sabitlik və qərarı olmayan pis ağac kimidir".

"İsra" surəsinin 60-cı ayəsində deyilir:

"...Və Biz sənə göstərdiyimiz o yuxunu və Quranda lənətlənmiş o ağacı insanlar üçün yalnız bir sınaq etdik..."

Burada bir qrup adam pis əməllərinə və şeytani təbiətlərinə görə Allahın lənətinə düçar olmuş ağaca bənzədilmişdir. Sanki onlar eyni kökdən olan bir ağacın budaqları kimidir. Əllamə Təbatəbai İslamın yayıldığı ilk dövrlərdəki üç qrupu - yəhudi, müşrik və münafiqləri və hər birinin sifət və xüsusiyyətlərini araşdırmış, belə bir nəticəyə gəlmişdir ki, ayədə "lənətlənmiş ağac"da məqsəd münafiqlərdir ki, zahirdə İslamı qəbul etmişlər".

## İlahi peyğəmbərlərin həyatında ağacın rolu

Qurani-kərimdə peyğəmbərlərin həyatından bəhs edən ayələrdə insandan başqa digər varlıqların, o cümlədən, "ağac"ın da rolu müşahidə olunur. Quran beş peyğəmbərin həyatında bu məsələyə işarə etmişdir:

1. Ağacın həzrət Adəmin (ə) həyatında və onun Cənnətdən çıxmasında mühüm təsiri olmuş və Quranda dəfələrlə, o cümlədən, "Bəqərə" surəsi 35, "Əraf" surəsi 19-22, "Ta-Ha" surəsi 120-ci ayələrdə bu məsələdən bəhs olunmuşdur. Belə ki, Allah-təala Adəm (ə) və Həvvanı (ə) yaratdıqdan sonra onlara qadağan olunmuş ağaca yaxınlaşmamaq göstərişi vermişdi. Lakin şeytanın vəsvəsəsi ilə bu göstərişə əməl olunmaması onların Cənnətdən çıxması və yer üzünə endirilməsi ilə nəticələnir.

2. Həzrət Yunus (ə) Allahın Neynəva camaatını hidayət etmək üçün seçdiyi ilahi peyğəmbərlərdən biridir. Onun adı dörd dəfə Quranda çəkilmişdir. Qurana və islami rəvayətlərə əsasən Yunus (ə) Neynəva camaatı onun dəvətini qəbul etmədikləri üçün oranı tərk edib dəniz sahilində gəmiyə minir. Dənizdə tufan qopur və onu gəmidən suya atırlar ki, tufan sakitləşsin. Allahın göstərişi ilə nəhəng bir balıq onu udur və bir neçə gündən sonra onu yenidən sahilə atır. Bu müddətdə arıqlayıb zəiflədiyi üçün Allah meyvəsindən yeyib qüvvəsini bərpa etməsi üçün Yunusun (ə) yolunun üzərində bir ağac bitirir.

"Beləliklə, onu xəstə halda tavan və kölgəsiz yerə atdıq. Və onun başı üzərində balqabaq (yaxud banan və əncir) növündən bir tağ bitirdik" ("Saffat" surəsi, ayə 145-146).

3. Həzrət Musanın (ə) həyatında ağacla bağlı ən mühüm məqam kimi onun öz ailəsi üçün sığınacaq tapmaq məqsədilə Tur dağına getməsi və Allahın ağac vasitəsilə onunla danışması və onu peyğəmbərliyə təyin etməsini qeyd etmək olar.

"Musa odun yaxınlığına gəldikdə o vadinin sağ tərəfindən, o bərəkətli torpaq sahəsindən, (oradakı) ağacdan nida gəldi ki, "Ya Musa, şübhəsiz, aləmlərin Rəbbi olan yeganə Allah Mənəm" ("Qəsəs" surəsi, ayə 30).

4. Həzrət İsa (ə) ilə bağlı onu demək olar ki, həzrət Məryəm (s.ə) onun dünyaya gəlməsi əsnasında öz qövmündən uzaqlaşır və səhrada bir xurma ağacına sığınır. Allah-təala ona belə xitab edir:

"Və xurma ağacını özünə tərəf silkələ ki, sənin üçün təzə yığılmış xurma tökülsün" ("Məryəm" surəsi, ayə 25).

5. İslam Peyğəmbərinin (s) həyatının məcmusunda Quranın ağaca işarə etdiyi hadisə "beyəti-rizvan" hadisəsidir ki, yeddinci hicri ilində baş vermişdir. Müsəlmanlar Məkkəyə gedən yolun üzərində, Hüdeybiyyə adlanan yerdə o həzrətlə (s) yenidən beyət etmiş və ona kömək etməyə söz vermişlər. "Fəth" surəsinin 18-ci ayəsi bu hadisə ilə əlaqədar nazil olmuşdur.

"Şübhəsiz, Allah möminlərdən onlar (Hüdeybiyyədə) ağacın altında sənə beyət edən zaman razı qaldı..."

## Cənnət ağacları

Dinimiz baxımından insan həyatı bu maddi aləmlə məhdudlaşmır. Onun əsl və əbədi həyatı bu dünyadan köçəndən sonra başlanır. Bu həyatda əməlisaleh olanlar Axirətdə başdan-başa gözəlliklərlə dolu olan Cənnətlə mükafatlandırılarlar. Dünya bağlarında olduğu kimi Cənnətin də özünəməxsus ağacları vardır.

"(Ağaclarının) kölgələri onların başları üzərinə kölgə salacaq, yetişmiş meyvələri isə asanlıqla əyiləcək və onların ixtiyarına veriləcək" ("İnsan" surəsi, ayə 14).

"Rəhman" surəsinin 46-48-ci ayələrində deyilir:

"Rəbbinin hökmranlığından və hər şeyi əhatə etməsindən və ya özünün Rəbbinin hüzurunda dayanmasından qorxan kəs üçün iki Cənnət vardır. Belə isə Rəbbinizin nemətlərinin hansı birini təkzib və inkar edirsiniz? Onların (həmin iki Cənnətin) hər ikisinin qollu-budaqlı ağacları vardır".

Bəzi ayələrdə Cənnət ağaclarının növünə və hansı meyvələri verdiklərinə də işarə olunmuşdur. Məsələn, "Rəhman" surəsinin 68-ci ayəsində "nar" və "xurma", "Nəbə" surəsinin 23-cü ayəsində "üzüm", "Vaqiə" surəsinin 28-ci ayəsində "sidr", 29-cu ayəsində isə "banan" ağaclarına işarə olunur.

Ən məşhur Cənnət ağacı "Tuba" ağacıdır ki, Quranda bu kəlmə yalnız bir dəfə "Rəd" surəsinin 26-cı ayəsində işlədilmişdir, lakin ağac mənasında yox. Bu haqda məlumat daha çox islami rəvayətlərdə mövcuddur. Rəvayətlərin birində deyilir: "Tuba Behiştdə bir ağacdır ki, kökü Allah Rəsulunun (s), budaqları isə hər bir möminin evindədir".

## Cəhənnəm ağacları

Cəhənnəm ömrünü qəflət, günah və tuğyanla keçirən insanların yeri olub, hətta ağaclarının belə işgəncə vasitəsi olduğu bir əzab məkanıdır.

Qurani-kərim Cəhənnəmin xüsusiyyətlərindən bəhs edərkən "zəqqum" ağacının adını çəkir. "Saffat" surəsinin 62-67-ci ayələrində oxuyuruq:

"Qonaq olmağa (ziyafət üçün) bu daha yaxşıdır, ya "zəqqum" ağacı?! Həqiqətən, Biz onu zalimlər üçün bir əzab vasitəsi etdik. O elə bir ağacdır ki, Cəhənnəmin lap dibindən baş qaldırar. Tumurcuqları sanki şeytanların başlarıdır. Həqiqətən, onlar ondan o qədər yeyərlər ki, qarınlarını onunla doldurarlar".

"Duxan" surəsinin 43-46-cı ayələrində isə bu ağac belə vəsf olunur:

"Şübhəsiz, zəqqum ağacı peşəsi günah olan kəsin yeməyidir. O, qarınlarda qaynayan əridilmiş mis kimidir. Qaynar suyun qaynaması kimi!"

Bu ayələrdən məlum olur ki, zəqqum ağacı elə bir ağacdır ki, Allah onu öz qüdrəti ilə Cəhənnəmin dibindən bitirir. Onun meyvələri Cəhənnəmdə günahkarların təamıdır.

# Həzrət Əyyubun ibrətamiz əhvalatı

Qurani-Kərimin dörd surəsində həzrət Əyyubun (ə) adı çəkilib. Əyyub peyğəmbər səbr və dözümdə nümunəvi peyğəmbərdir. Həzrət Əyyub haqqında Quranın təkcə bir surəsində söz açılsa da əslində, onun yaşadıqları müsibətlər, bəlalara düçar olan çox sayda insanlar üçün örnək sayıla bilər. Quran və dini ədəbiyyata əsaslanaraq tam qətiyyətlə demək olar ki, Allah taala ona çoxlu mal-dövlət, qüdrətli övladlar və sağlam bədən bəxş etmişdi. Onun, məhsuldar əkin sahələri və çox sayda mal-qarası var idi. Güzəranı yaxşı keçirdi. Allah onu sınamaq üçün o nemətləri onun əlindən aldı; əkin sahələri yararsız, mal-qarası tələf oldu və övladları da vəfat etdi. Özü isə ağır xəstəliklərlə üzləşdi. Bütün ağır günlərdə, daima Allaha şükür etdi və heç vaxt şikayət etmədi. Allahdan başqa heç kimə sığınmadı. Allahın izni olmadığı üçün, hətta Ondan bütün bu bəlaların çözümünü diləmədi. Sınaq və bəla dövrü bitdi. Bu müddət ərzində Əyyub, heyrətamiz səbr nümayiş etdirdi. Ona görə də Allah taala onun itirdiklərini - hətta ondan da çox ona qaytardı. Bundan əlavə onun yaşadıqları və hədsiz dözümünü başqalarına nümunə hesab etdi. "Dərgahımızdan bir mərhəmət və ağıl sahiblərinə bir ibrət olsun deyə, ona ailəsini və üstəlik bir o qədər də (oğul-uşaq) bağışladıq"[1] Allah tərəfindən dua etməyə izinli olduğu vaxt acizanə bir qul kimi Allahdan bəlaların dəf olmasını istədi: "…Şeytandan mənə bəla və əzab toxunub…!"[2] Əlbəttə Şeytanın peyğəmbərlərin ruh və iradələrinə yol tapması mümkünsüzdür. Amma onlara fiziki aspektən təsir etməsi (müxtəlif bəlalara düçar etməsi) mümkündür.[3]

Allah onun istəyinin cavabında buyurdu: "Ayağınla (yerə) vur! Bu, (yerdən çıxan bulaq) yuyunacaq və içiləcək sərin (sudur)!" (Əyyub o su ilə qüsl edib ondan içən kimi bütün xəstəlikləri getdi). …Biz onu (müsibətlərə) səbr edən gördük. Nə gözəl bəndə! O, (daim Allaha) sığınan bir kimsə idi.[4] Həzrət Əyyubun səbri müxtəlif müsibətlərə düçar olan insanlar üçün örnək ola bilər. Müxtəlif bəlalara düçar olan şəxs ilk baxışda həlli mümkünsüz olan işləri mümkünsüz saymamalıdır. Allahın qüdrətli olduğuna inanmalı hər zaman onun qeybdən gələcək lütfkarlığına etiqad bəsləməlidir. Bəli, Allah insanı xəstəliklər və müsibətlərdən xilas edə bilər. Aqil insan "(Allahdan) başqa heç bir sığınacağın olmadığını bilməlidir. (Pənah yalnız Allahadır!)".[5] Allah həzrət Yunusun zikrini qəbul etdiyi kimi həzrət Əyyubun duasını da qəbul etdi. Ona görə də Allah Quranda buyurur: "(Ya Peyğəmbər!) bəndəmiz Əyyubu da yad et!..."[6] Allahın bəndələri də bu yolu qorumalıdır. Yəni səbr etməli, Allahdan üz döndərməməli və duaların müstəcab olmağına inanmalıdır. Əyyub şəfa tapdıqdan sonra Allaha - " Sən rəhmlilərin ən rəhmlisisən!"- deyə müraciət etdi.[7] Çünki



Onun mərhəməti hər şeyi ehtiva etmişdi.[8] Bu da Allahın bəndələri üçün örnək sayılır. Quran buyurur: "Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin…"[9]

Şübhəsiz hər bir insan dünyaya göz açandan bəri müxtəlif bəlalar və müsibətlərə düçar olur. Həm fərdi həm də ictimai həyatda müxtəlif çətinliklərlə üzləşir. Heç kəs bu sayılanlardan müstəsna deyil. Bu müsibətlər ölüm anına qədər davam edə bilər. Elə isə bu bəlaları yaradan amillər nədən ibarətdir? Bu məqalədə o bəlaları yaradan bəzi amillərdən söz açacağıq.

**Müsibətlərin amilləri:**

1-İlahi sınağın ehtivası genişdir. Hətta o sınaq, peyğəmbərləri də əhatə edə bilər. Bunun üçün Əyyubu misal çəkmək kifayətdir. İmam Sadiq (ə) buyurur: "Peyğəmbərlər adi insanlardan daha çox müsibətlərə düçar olur..."

Ümumiyyətlə bəndələri sınamaq Allahın yer üzərindəki ümumi qanunudur; "İnsanlar (möminlər) yalnız: "iman gətirdik" - deməklə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Xeyr, iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacağıq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edib bilək!) Biz onlardan əvvəlkiləri (keçmiş ümmətləri) də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da (həqiqi iman sahiblərini də), yalançıları da çox gözəl tanıyar!"[10]

2- Quran buyurur: "Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! (Asanlıq yalnız çətinliklə hasil olar!) Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Buna görə də çətinliklərə səbrlə dözmək, eləcə də naümid olmaq lazım deyil!)[11] Çətinliklər insanlarda olan istedadları üzə çıxarır. Nəticədə onlar müəyyən problemləri həll etməyə qadir olur.

3- Bütün həqiqi möminlərə səbr dərsi verən bəlalar, nəhayət Allah dərgahında "bəyənilmiş məqam"a nail olmağa zəmin yaradır. Dini mətnlərdə müsibətlərə dözümlülər üçün böyük əcr nəzərdə tutulub; "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə sınaqlara) səbr edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!" deyirlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (Cənnət) gözləyir. Onlar doğru yolda olanlardır!".[12] Həmmam deyilən bir abid həzrət Əliyə (ə) dedi: Ey Əmirəl-möminin, pərhizkarların sifətlərini mənə elə vəsf et ki, onları görmüş kimi olum. Həzrət təqvalı şəxsləri yüzdən artıq sifətlə vəsf edir. O xüsusiyyətlərdən biri bu yazıda yer ala bilər: "Pərhizkarlar çətinlik zamanı başqalarının asayiş və rahatlıqda olduqları kimidirlər. ( Yəni ilahi təqdirə boyun əyərək Allahın istədiyinə razıdırlar və onlar üçün çətinliklə rahatlıq birdir)".[13]

4- Hər hansı bir insan müsibətə düçar olduqda onun ətrafında olan insanların sədaqəti və vəfadarlığı da sınağa çəkilir. Əyyub peyğəmbər bütün mal-dövlətini və sağlamlığını itirdikdə dostları- hətta ailəsi də ondan üz döndərdilər. Dar günlər dostların tanınmasında çox önəmlidir.

5- Maddi həyatdakı dəyişikliklər insanın Allah sevgisinə əngəl yaratmamalıdır. Həqiqi mömin, Allahı nemətlərin bol olduğu vaxt sevir eyni halda müsibətlərə düçar olduqda imanı zərrə qədər azalmır.

6- Maddi imkanların əldən çıxması və bəlalarla üzləşmək Allahın bəndələrinə qarşı rəhimsizliyinə dəlalət etmir. Eləcə də problemsiz həyat Allahdan uzaq olmaq mənasını daşımır. Əgər insan vəzifə, övlad və mal-dövlət əsiri olmasa istənilən şəraitdə Allahın xüsusi bəndələrindən ola bilər.

7- Müsibətlər, insanları tövbə etməkdə və qəflət yuxusundan oyanmaqda böyük təsirə malikdir. Çətinliklərlə üzləşməyən insanlar Allahı və məadı unudur nəticədə böyük günahlara mürtəkib olurlar. Quran buyurur: "Səndən əvvəl də ümmətləri müsibət və fəlakətə düçar etdik ki, (Allaha) yalvarsınlar". "İnsana bir zərər toxunduqda tövbə edərək Rəbbinə yalvarar. Sonra (Allah Öz) dərgahından ona bir nemət əta etsə, əvvəlcə kimə dua etmiş olduğunu unudar..." "Biz ən böyük əzabdan (axirət əzabından) əvvəl onlara mütləq dünya əzabından daddıracağıq. Bəlkə, (tövbə edib düz yola) qayıdalar!"[14] Dünya əzabı dünyada baş verən bəlalar, müsibətlər, xəstəliklər və sair acı hadisələrdir.

8- Bəzi hadisələr günahkarların günahı ucbatındandır. Allah onları cəzalandırmaq üçün bu dünyada onları müxtəlif müsibətlərə düçar edir; " Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər"[15]

İmam Sadiq (ə) buyurur: "Bəndənin günahları çoxaldıqda və o günahlara kəffarə olacaq əməli olmadıqda bu dünyada bağışlanması üçün Allah ona bəlalar göndərər." (çünki axirət əzabı daha şiddətli və dözülməzdir).[16]

9- Çətinliklərə dözən insanın imanı daha möhkəmdir. "…(Dözüb-dözməyəcəyinizi, şükür edəcəyinizi, yaxud nankor olacağınızı) yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə (xəstəlik, yoxsulluq, ehtiyac və sağlamlıq, var-dövlət və cah-cəlalla) imtahana çəkərik."[17]

Həzrət Əli (ə) müxtəlif çətinliklər görmüş insanı səhrada bitən ağaclara bənzədərək buyurur: "...Bilin ki, səhrada olan ağacın taxtası daha möhkəmdir. Amma (suyu çox olan bağlarda əkilmiş) yaşıl ağacların qabıqları daha nazikdir…"[18] Yəni çətinliklərlə mübarizə edib uğur qazanan insanın imanı güzəranı xoş keçən insanların imanından daha çox və möhkəmdir.

**Qeydlər:**

1-"Sad" surəsi, 43-cü ayə.
2- "Sad" surəsi, 41-ci ayə.
3- "Sireye peyambəran dər quran", səh 75.
4- "Sad" surəsi, 42-44.
5- "Kəhf" surəsi, 27-ci ayə.
6- "Sad" surəsi, 41-ci ayə.
7- "Ənbiya" surəsi, 83-cü ayə.
8- "Əraf" surəsi, 156-cı ayə.
9- "Əraf" surəsi, 180-ci ayə.
10- "Ənkəbut" surəsi, 2-3.
11- "İnşirah" surəsi, 5-6.
12- "Bəqərə" surəsi, 155-157.
13- "Nəhcül-bəlağə" 160-cı xütbə.
14- "Ənam" -42; "Zümər" -8; "Səcdə" -21.
15- "Şura" surəsi, 30-cu ayə.
16- "Üsuli kafi", c3, səh 44.
17- "Ənbiya" surəsi, 35-ci ayə.
18- "Nəhcül-bəlağə" 45-ci məktub.

Hazırladı: Şəhriyar
***İslammektebi***

# AŞIQ ƏLƏSGƏRDƏN GÖZƏL İNCİLƏR



## AŞIQ OLUB, TƏRKİ-VƏTƏN OLANIN

***Aşıq olub, tərki-vətən olanın***
***Əzəl başdan pürkamalı gərəkdir.***
***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdir.***

***Xalqa həqiqətdən mətləb qandıra,***
***Şeytanı öldürə, nəfsin yandıra,***
***El içində pak otura, pak dura,***
***Dalısınca xoş sədalı gərəkdir.***

***Danışdığı sözün qiymətin bilə,***
***Kəlməsindən ləlü gövhər süzülə,***
***Məcazı danışa, məcazı gülə,***
***Tamam sözü müəmmalı gərəkdir.***

***Arif ola, eyham ilə söz qana,***
***Naməhrəmdən şərm eyləyə, utana,***
***Saat kimi meyli haqqa dolana,***
***Doğru qəlbi, doğru yolu gərəkdir.***

***Ələsgər, haqq sözün isbatın verə,***
***Əməlin mələklər, yaza dəftərə,***
***Hər yanı istəsə baxanda görə***
***Təriqətdə bu sevdalı gərəkdir.***

***Tərki-vətən*** *– vətəni tərk edən, səfərlərdə olan*
***Pürkəmal*** *(pür – fars, kamal - ərəb sözü) – kamallı, ağıllı*
***Mətləb*** *(ərəb sözü) – arzu, istək, dilək, məqsəd*
***Məcazi*** *(ərəb sözü) – həqiqi hərfi mənada deyil, metaforik mənada işlənir.*
***Müəmma*** *(ərəb sözü) – mənası gizli, çətin anlaşılan, üstüörtülü söz*
***Şərm*** *– həya, xəcalət*
***Təriqət*** *– burada "tutduğu yol" mənasında işlənmişdir*




## ALLAHIN ADI İLƏ

***İbtidada "əlif" – Allah,***
***"Be" – birliyə dəlalətdi.***
***"Te" – təkdi vahidi-yekta,***
***Arif bu elmə bələddi.***

***"Se" – sabitdi doğru yola,***
***"Cim" – ucadı, bax calala,***
***"He" – mehribandı halala,***
***Münkir ondan xəcalətdi.***

***"Xe" – birdi xaliqi-əkbər,***
***"Dal" – doğru doqquz fələklər,***
***"Zal" – zikr eylə dildə əzbər,***
***"Re" – rəsulumuz Əhməddi.***

***"Ze" – zəbanı aç xudaya,***
***"Sin" – salam et, getməz zaya,***
***"Şin" – şövq elə o mövlaya,***
***Qeyri söhbət məsiyətdi.***

***"Sad" – səbri şahi-heydərə,***
***"Zad" – zərbin vurdu Əntərə,***
***"Ta" – tərif çıxdı göylərə,***
***Ağam kani-şücaətdi.***

***"Za" – zülm edəcək düşmənə,***
***"Eyn" – həyati-çeşmanə,***
***"Ğeyn" – ğül-ğüli-dövranə,***
***"Fe" – fəna, "qaf" – qiyamətdi.***

***"Kaf" – "kun" ilə tutub qərar,***
***"Lam" – lal, necə hesab verər,***
***"Mim" – möminə yol göstərər,***
***İsmi-paki Məhəmməddi.***

***"Nun" – nida eylər hər zaman,***
***"He" – hamıya yetər fərman,***
***"Vav" – vay deyər, yatma, oyan,***
***Sanma səhni-zərafətdi.***

***"Lam – əlifla" – birdi Allah,***
***"Ye" – yekdi adil padişah.***
***Ələsgər, tutduğun günah***
***Bağışlansa, çox hörmətdi.***

## İMAMLAR

***"Bismillahir-rəhmanir-rəhim!" – deyib,***
***Sidq ilə çağırram Şahi-Heydəri.***
***Xişmə gəlib, bir əlində götürdü***
***Səksən min batmanlıq dəri-Xeybəri.***

***Həsən əl-müctəba aləmə rəhbər,***
***Hüseyni-şəhiddi şafeyi-məhşər,***
***İmam Zeynalabdın dilimdə əzbər,***
***Qoyma darda mən zəlilü müztəri!***

***Məhəmməd Bağıra var iltiması m,***
***İmam Cəfərə bağlamışam xilasım,***
***Borcluya zamindi Museyi-Kazım,***
***Qurtarıbdı dardan çox zəlilləri.***

***Qərib imam Rza – Xorasan şahı,***
***Sidq ilə çağıran heç çəkməz ahı.***
***Məhəmməd Tağıdı aləm pənahı,***
***Ona qurban dedim bu canü səri.***

***Əliyyən Nağıdı aləmdə əla,***
***Bir səri min dərdə olub mübtəla.***
***İstəyirsən, müşgül işin həll ola,***
***Sidqi-dillə çağır Həsən Əsğəri.***

***Mehdinin şəninə gəlibdi ayat,***
***İsminə möminlər verir salavat.***
***Yovmi-ərəsatdə etmə xəcalət,***
***Yandırma odlara qul Ələsgəri!***

## RƏNC ALİ-ƏBA

***İbtida "əlif"dən dərsim almışam,***
***Ələst aləmində demişəm "bəli".***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Məhəmməd, birisi Əli.***

***Əlidən dərs aldım, eylədim əzbər,***
***Ərşin sütunudu, yerlərə ləngər.***
***Fatimeyi-Zəhra, şafeyi-məhşər,***
***Onu seçdim gözəllərin gözəli.***

***Həsən əl-müctəba, çoxdu şövkəti,***
***Ərşin güşvarəsi, yerin zinəti,***
***Məhşər günü darda qoymaz ümməti,***
***Əsğər qucağında şah Hüseyn gəli.***

***Xaliqi-ləmyəzəl vahid əl-yektay,***
***Qüdrətindən kamal verib mana pay.***
***Oxu "əlif", "ğeyn", eylə haqq-say,***
***Arif seçər əbcəd ilə cəm əli.***

***Günahım dəryadı, özüm qanmışam,***
***Tutduğum işlərə çox utanmışam,***
***Püşti-pənahına daldalanmışam,***
***Adım Ələsgərdi, əslim – göyçəli.***

# XƏSTƏ QASIM YARADICILIĞINDA

# HƏZRƏT ƏLİNİN (Ə) YERİ



Haqq aşiqlərindən biri də Xəstə Qasımdır. Xəstə Qasımın bütün şeirləri insanı düşündürür, idrakına, şüuruna təsir göstərir, ona zövq verir və mənəvi aləmini saflaşdıraraq bulaq suyu kimi şəffaf edir. Bu haqq aşiqinin hər bir şeirində ümid çırağı yanır.

***Alimdən dərs aldım, əlif-bey üçün,***
***Sürahilər düzülübdür mey üçün,***
***Dəli könül, qəm çəkirsən nə üçün?***
***Qəmli günün şad günü var yanınca.***

Ustad aşığın söylədiyi bu şeirin məzmunu Qurani-Kərimin ayələri ilə üst-üstə düşür. Belə ki, Allah-təala Qurani-Kərimin "İnşirah" surəsinin 5-ci və 6-cı ayələrində buyurur: "***Fə innə məəl usri-yusra***; ***İnnə məəl usri yusra***" – Əlbəttə, hər çətinliklə bir asanlıq var! İki aləmdə hər çətinliklə bir asanlıq var!

Xəstə Qasım da məhz bu ayələrə söykənərək insanları ümidsiz olmamağa səsləyir.

"Xəstə Qasım" dastanında maraqlı və cazibədar bir hadisənin şahidi oluruq. Adi bir çoban olan Xəstə Qasım qoyun otararkən bir qəbristanlıqda yatır, yuxuda ona aşıqlıq istedadı və şairlik təbi verilir. Alimlər, qazilər, ruhanilər qarşısında elm və sənət imtahanı verən və bu imtahandan qalib çıxan Xəstə Qasıma Müctəhid məclisə layiq ən gözəl söz söyləməyi xahiş edir. Məclisə və insanlığa layiq olan ən gözəl söz nə ola bilər? Haqq aşiqi olan Xəstə Qasımın nəzərincə, Həzrət Əlinin (ə) şəninə söylənmiş vəsfdən gözəl söz yoxdur. Ona görə də öz imanını belə ifadə edir:

***Ərşi-zəmin, lövhi-qələm yox ikən,***
***Varlığa hamıdan tez gələn Əli.***
***Ustadlar ustadı özün olubsan,***
***Cəbrail məqamın düz bilən Əli.***

***Sənin hörmətinə quruldu varlıq,***
***Həyatın zəm-zəmi, o suyi-dirlik***
***Səndə nəqş olundu elm və birlik,***
***Cəmi dillər ilə söz bilən Əli.***

***Xəstə Qasim, zərbi-danəndən Əli,***
***Aləmi-zərridə demişəm, bəli,***
***Bir ismin Əlidir, bir ismin vəli,***
***Cəmi pünhan dərdi tez bilən Əli.***

Ustad aşıq digər bir şeirində Əhli-beytə(ə) sonsuz məhəbbətini bildirir, xüsusən, Həzrət Əlinin (ə) təkcə yer əhli üçün deyil, səma əhli üçün də nicat gəmisi olduğunu vəsf edir və deyir:

***Əli Düldül mindi, Muhəmməd Büraq,***
***Aləmin şahpəri, o şahi-çıraq,***
***Əbazər Əlini eylədi qonaq,***
***Qırx yerdə dedilər mənzilgahini.***

***Qəbul oldu Xəstə Qasım duası,***
***Silinib, könlümün qalmadı pası,***
***Cəbrail vəhy gətdi: "Ya Fatimə! Eyləmə bəhsi,***
***Əli ərşdə açıb səcdəgahini".***

Aşıq yaradıcılığında Həzrət Əli (ə) həm ilahi, həm də bəşəri keyfiyyətlərə malik bir şəxsdir. Aşıqlar onu özlərinə mürşid, pir, yol göstərən kimi vəsf ediblər.

Bu sıraya daxil olan aşıqlardan biri də haqq aşiqi kimi tanınan Aşıq Valehdir. Aşıq Valeh "Vücudnamə"sində qeyd edir ki, insan qəbrə qoyulduqdan sonra Nəkir və Munkir adlı iki mələk gəlib sorğu-sual edir. Həmin anda insanlar imdadına axirət hamisi və yardımçısı kimi Həzrət Əlini (ə) çağırırlar.

***Munkir-Nəkir məndən aldılar xəbər,***
***Çəkdilər üstümə həm tiğu-təbər,***
***Nitqim batdı, dilim tutmadı əzbər,***
***Mənə qəbr içində verdilər cəza.***

***Çağırdım: "Ya Əli! Həlali-müşkül,***
***Ürək qüvvət tapdı, güşad oldu dil,***
***Cavabın suala oldu müqabil,***
***Müraciət etdi Mərsuli-Xuda.***

Bu misralardan da aydın görünür ki, Həzrət Əli (ə) təkcə bu dünyanın hamisi deyil, həm də axirət himayədarıdır.

# 3 - 4 -7- 40 YAS RƏQƏMLƏRİNİN MƏNASI NƏDİR?

***Çoxdandır hamımızın zehnində olan suallardan biri də, yas mərasimlərinin neçə gün davam etməsi ilə əlaqədərdir. Heç bir şey səbəbsiz deyil. İstər təbiət olsun, istər adət - ənənə. Yas mərasimlərimizin də 3, 4, 7, 40 olması, səbəbsiz deyil.***





Öncə bəzi məsələləri bilməliyik:

Əvvəla bunu bilək ki, İslam qanunları 5 hissəyə bölünür:

**1) Vacib.** Yəni, onu etmək bizim borcumuzdur. (Məs: Namaz, oruc, zəkat və s..)

**2) Haram**. Yəni, onu etmək qadağandır. (Məs: Oğurluq, zina, böhtan və s..)

**3) Müstəhəb**. Yəni, onu etmək bəyənilmiş və savablı işdir. (Məs: salam vermək)

**4) Məkruh.** Yəni, onu etmək bəyənilməyən işdir. (Məs: Məsciddə yatmaq )

**5) Mübah.** Yəni, istər et, istər etmə, nə borcumuzdur, nə qadağandır, nə bəyənilən, nə də bəyənilməyən. Yəni insanın öz şəxsi istəyidir. Buna misal çoxdur. Adi bizim həyatımız. Məs: Çay içərkən istəsən qəndlə iç, istəsən konfetlə. Toy etdikdə gəlin maşınının hansı rəng və ya hansı markada olmasının dinə heç bir aidiyyatı yoxdur. Meyvə aldıqda hansını istəsən al, öz şəxsi işindir.

**Vəfat etmiş insan üçün 5 əməl vacibdir:**

**1) Onun qüslu**. (meyyitin, sidr maddəsi ilə qarışmış su, kafur maddəsi ilə qarışmış su və adi təmiz su ilə yəni heç bir maddə ilə qarışmayan su ilə yuyulması = 3 qüsul)

**2) Onun hənutu.** (İnsanın səcdə etdiyi 7 üzvə yəni alın, əllərin içi, dizlər və ayağının baş barmağına kafur adlı maddənin vurulması)

**3) Kəfən.** Üç hissədən ibarətdir.

**- Long.** Göbəkdən dizlərə qədər olmalı.

**- Köynək**. Çiyindən baldırın yarısına qədər yəni, dizlə topuğun arasına kimi örtülməlidir.

**- Sərtasər.** (Bütövlüklə) Uzunluğu o qədər olmalıdır ki, onu iki tərəfdən (uclarını) bağlamaq olsun.

Eni də o qədər olmalıdır ki, meyyiti bükdükdə bir tərəfi o biri tərəfin üstünə gəlsin.

**4) Meyyit namazı.** Beş təkbiri və bəzi cümləl əri vardır.

**5)Dəfn**. (Sağ çiyni üstə, üzü qibləyə basdırılmalıdır)

İslam dininin vəfat etmiş insan barədə vacib qanunları, yalnız bunlardır. Amma bizim qəbr üstə “Yasin”, “Fatihə”, “Salavat” və dua oxumağımız, təlqin, qəbr üstə su səpməyimiz, qəbr üstünə ziyarətə getməyimiz və s.. bunlar hamısı müstəhəb işlərdir. Yəni bunları etsək daha yaxşı olar. Özümüz savab qazanar, vəfat etmişin isə ruhu şad olar.

***Bir nəzəriyyəyə görə isə, İnsan ruhu neçə xüsusiyyətə malikdir ki, onlar ölüdən tədricən 3, 7, 40 günlərində cəsəddən ayrılır. Belə ki, ölərkən İnsani ruh, 3-də heyvani ruh, 7-də Nəbati ruh və nəhayət 40-da isə Cəmadi ruh onu tərk etmiş olur.***

**3-4-7-40 – ın mənası:**

**Üç barəsində 2 fikir söylənilir**: 1) Dünyasını dəyişmiş insanın ruhu, 3 gün evdə olar və onu yad etmələrini görər. 2)Bəzi tarixə əsasən üç peyğəmbər sağdır. (İsa, Xızr, İdris) Bu sağ qalan peyğəmbərlər dünyasını dəyişmiş insanın bağışlanması üçün, üç gün Allaha dua edərlər. O üç peyğəmbər bizim dünyasını dəyişmiş yaxınımıza belə qiymət və dəyər verdikləri üçün, qarşılıqlı olaraq biz də 3 gün edərik.

**Dörd barəsində 2 fikir söylənilir:** 1) Dünyasını dəyişmiş insanın ruhu, 4 gün evdə olar və onu yad edənləri görər.

2)Bəzi tarixə əsasən dörd peyğəmbər sağdır. (İsa, Xızr, İdris, İlyas) Bu sağ qalan peyğəmbərlər dünyasını dəyişmiş insanın bağışlanması üçün, dörd gün Allaha dua edərlər. O dörd peyğəmbər bizim dünyasını dəyişmiş yaxınımıza belə qiymət və dəyər verdikləri üçün, qarşılıqlı olaraq biz də 4 gün edərik.

**Yeddi barəsində 2 fikir söylənilir:** 1) İnsan dünyasını dəyişir, onun ruhu yeddi gün gözü arxada qalır.Yəni onun üçün hər hansı bir mənəvi hədiyyə istər ta ruhu şad olsun.

2) Şimal qütbündə Pərvin adlı ulduz vardır ki, onu yeddi mələk saxlar, ona nəzarət edərlər. O yeddi mələk dünyasını dəyişmiş insanın bağışlanması barəsində yeddi gün Allaha dua edərlər. O yeddi mələk bizim dünyasını dəyişmiş yaxınımıza belə qiymət və dəyər verdikləri üçün, qarşılıqlı olaraq biz də 7 gün edərik.

**Qırx barəsində 2 fikir söylənilir:** 1) Dünyaya gələn körpənin boynu qırxıncı gün sümüyə oturar. Dünyasını dəyişməsindən 40 gün ötən insanın, boynu həmin gün sümükdən aralanar.

2) Dünyasını dəyişmiş peyğəmbərlər içində, qırx peyğəmbərin qəbri naməlumdur. (Musa peyğəmbər kimi) Qəbrləri naməlum qalan 40 peyğəmbər dünyasını dəyişən insan üçün, qırx gün onun bağışlanmasını Allahdan dilə r. Qəbirləri naməlum qalan o qırx peyğəmbər bizim dünyasını dəyişmiş yaxınımıza belə qiymət və dəyər verdikləri üçün, qarşılıqlı olaraq biz də 40 gün qeyd edərik.

Təbii ki bu adət - ənənə heç də yersiz təyin olunmayıb və ən doğrusunu Allah bilir...

Allah dünyasını dəyişmiş yaxınlarımıza rəhmət etsin...Amin...



# EDUARDO ANİELLİ
## Xristian dünyasının müsəlmanı

**Haqqında söhbət açacağım bu əhvalatı oxuduqca sizi də mənim kimi təəccüb və həyəcan bürüyəcək. İçinizi sükunətdə saxlayacaq ötən yüz ilin əqidə seçimində yaşanan bu faciə bir çoxlarını şoka saldı.**

**Doğru əqidə seçimində milyardlarla dollarından, böyük həcmli varislik hüququndan imtina edən, İtaliya klanında yüksək mənsəbə malik əbədi təminatlanmış bu şəxs sonunda cəfərilik əqidəsini qəbul etdiyi üçün böyük təzyiqlərə, mənəvi, maddi sıxıntılara məruz qaldı. Onun əlindən alınan hüquqları ilə xristianlığın mərkəzi olan İtaliyada getdikcə daha çox dərinləşən inamından təhlükəyə düşənlər son qərar olaraq onun qətli üçün plan hazırladılar.**

2000-ci il noyabrın 15-i ötən illərin qış oyunları keçirildiyi Turin şəhərində İtaliyanın qeyri-rəsmi şahı sayılan məşhur Aniellilər klanının tək varisi, İslam əqidəli Eduardo Anielli gözlənilmədən özünü hündürlüyü 100 metrdən artıq olan körpüdən atıb öldürdü. İlkin baxışlara əsasən hadisə Avropada hər gün minlərlə özünə qəsd edən şəxslərin aqibətindən heç nə ilə fərqlənməsə də, məsələ araşdırıldıqca yeni müəmmalar bir çox qaranlıq məqamları ilə bu ölüm hadisəsinin yeni faktlarını üzə çıxardı. Iki ilə yaxın heç bir araşdırmaya yol verməyən Anielli klanının qoca sahibi, senator Covanni Anielli oğlunun ölüm hadisəsini araşdıran müstəqil araşdırmaçıların, bir çox jurnalistlərin həbs olunmasına təşkilatçılıq etdi.

Onun gözlənilməz ölümü İtaliyada rezonans doğursa da Italiya mətbuatında bu hadisə birmənalı qarşılanmadı. Belə ki, onların bir çoxu Eduardonun narkotika düşkünlüyü nəticəsində özünə qəsd etdiyini yazır, bəziləri onun artıq bir dəfə ruhu xəstəlikdən əziyyət çəkdiyindən bunu intiharın səbəbi kimi göstərirdilər. Hadisənin motivlərini bu günə qədər üzə çıxarmayan prokuror Vapsini isə hadisəni araşdırdığını deyirdi.

Hadisədən sonra Eduardonun körpüdən düşüb öldüyü ərazi polis işçiləri tərəfindən nəzarətə alınır. Hadisəni işıqlandırmaq istəyən kütləvi informasiya vasitələrindən heç biri əraziyə buraxılmır. Oradan götürülən predmetlər gizlədilir, cəsəd isə ekspertizadan keçmədən ertəsi gün Aniellilər ailəsinə məxsus qəbristanlıqda dəfn olunur, bununla da bu mövzuya son qoyulur.

Bir müddət müstəqil jurnalistlər bu hadisəni araşdırmağa çalışsalar da Aniellilərin sərt təzyiqilə üzləşdikdən sonra bunu özünəqəsd qiymətləndirərək öz yazılarına son qoyurlar. Lakin bu söhbətlər səngimə ərəfəsində ikən İran-İtaliya müştərək saytlarının birində yayılan məlumat hamını şoka saldı. Məlumatda bildirilirdi ki, Eduardo Anielli İslamı qəbul etdiyinə görə təzyiqlər nəticəsində öldürülmüşdür.

Nəhayət 2003-cü ildə bir qrup İranlı jurnalistin araşdırması hadisəni tam araşdıraraq həqiqət simasını cilvələndirdi.

### Eduardo Anielli! O, kim idi?

Eduardo, İtaliyanın varlı sahibkarlarından biri, qeyri-rəsmi şah adlandırılan Aniellilər klanının ən nüfuzlu şəxsi senator Covanni Aniellinin oğludur. O, 1954-cü ildə, yanvar ayının 6-da Amerikanın Nyu-York şəhərində dünyaya gəlib. Anası fransız, atası italyandır. Orta təhsilini İtaliyanın Turin şəhərində alan bu gənc ali təhsilini London şəhərində şərq fəlsəfəsi istiqamətində davam etdirmişdir. Qeyri-adi istedadı sayəsində bir çox nailiyyətlər əldə etmiş və doktorluq dərəcəsinə qədər yüksəlmişdir.

Ailənin özünə gəlincə isə Aniellilər ailəsi İtaliyanın ən varlı ailələri arasında öncül olaraq böyük maliyyəli bizneslə məşğul olan klandır. Dünyanın bir çox ölkələri ilə müqavilələri olub onlara avtomobil ixrac edən "Fiat" firması da Aniellilər ailəsinə məxsusdur. Eyni halda bir çox zavod və fabriklərə malikdirlər. Vertalyot istehsal edən böyük zavod, böyük sahələri əhatə edən əkinçilik kompleksləri və məşhur "Yuventus" futbol klubu da bu ailənin maliyyələşdirdiyi qurumlardandır.

Eduardo varlı təbəqənin xüsusiləşmiş ailəsində dünyaya gəlsə də var-dövlət və əyləncəyə o qədər də meylli olmur. Elə uşaq yaşlarından elmə olan böyük marağı sonradan onu fəlsəfəylə maraqlanmağa sövq edir. Elə fəlsəfə də onu özünün dərinliklərinə çəkir. O, daha sonralar fəlsəfi məktəblər daxilində yaranan ideoloji mübarizələri və təriqətlər arasındakı fərqləri araşdırmaqla məşğul olur. Eduardonun məşhur klan daxilində ən böyük məşğuliyyəti əsası babası tərəfindən 100 il öncə qoyulan "Yuventus" futbol klubunun oyunlarında iştirak edib ona azarkeşlik etmək olur. O, hətta bir müddət klubun rəhbərliyini də öz üzərinə götürür. Oyunçularla daimi münasibət və bərabərlik nümayiş etdirərək onlarda ruh yüksəkliyi yaradır. Lakin bu, onun araşdırmaları üçün ayırdığı vaxtı məhdudlaşdırdığı üçün futbola rəhbərlik etməkdən əl çəkməli olur. Həyatının son günlərinə qədər dini araşdırmalar və təriqətlər haqqında elmi baxışların təhlili ilə məşğul olur. O, eyni halda insan hüquqlarının müdafiəsi yönündə də çalışır.

Bu, onun həyatı haqqında ictimaiyyətə təqdim olunan qısa məlumat idi. Onun ölümü isə müəmma dolu bir aləm olduğu üçün bir qrup müstəqil İranlı jurnalist onu araşdırmağa başlayır və heç bir çətinliyə baxmayaraq indi sizə təqdim edəcəyimiz faktları üzə çıxara bilirlər.

Hadisəni İranın İtaliyadakı səfiri Məhəmməd Həsən Qədiri nəql edir: Bazar günü olduğu üçün səfirlik işləmirdi. Mən öz otağımda idim. Aşağıdan zəng vurdular ki, bir nəfər səfirlik mənsublarından biri ilə görüşmək istəyir. Mən səfirliyin bazar günü işləmədiyini xatırladıb onun sabah müraciət etməsini istədim. Lakin qapıçı gələn şəxsin "Allah bütün bağlı qapıları açandır" söylədiyini bildirəndə maraqla aşağı endim. 25 yaşlı hündürboylu gənc özünü təqdim etdi: Eduardo Anielli.

Mən onun məşhur klanla hər hansı bir əlaqəsinin olduğunu soruşduqda o, senator Covanni Aniellinin tək oğlu olduğunu söylədi. Bu, təbii ki, məni çox təəccübləndirdi. Çünki bu ailə İtaliyanın siyasi-iqtisadi həyatında xüsusi rol oynayırdı...

Eduardo öz araşdırmalarının qaranlıq qalan tərəflərinə cavab tapmaq üçün səfirliyin bu işdə ona kömək etməyini xahiş edir. Bununla da İran səfirliyi ilə Eduardonun sıx əlaqələri başlayır...

Bu əlaqələr arxasında gizlənən araşdırmaların anlaşılmaz tərəflərinə cavab axtaran Anielli bu işdə ona köməkçi olmalarını istəyir. İran İtaliya İslam hərəkatının üzvləri iki qardaş olan Hüseyn və Məhəmməd Abdullahi qardaşlarının Eduardo arasında olan dostluqları bu xatirələr qoynunda maraqlı faktları üzə çıxardı.

**Doktor Hüseyn Abdullahi:** O, dinlər haqda geniş araşdırmalar aparır, maraqlı tədqiqatlar nəticəsində müəyyən təhlillər edirdi. Məhz bu araşdırmaların nəticəsi olaraq o, cəfəri məzhəbinin əqidəsini qəbul etmişdi. Eduardo hələ 20 yaşında (1974) ikən bir gün universitet kitabxanasında kitablar qarşısında əlinə Qurani-Kərim keçir. Böyük maraq dairəsində olduğu Quranın mənəvi dünyasından zövq alan Eduardo İslamın zəngin din olması düşüncəsini öz içində bir daha təsdiqləyir.

O dövrün İranın İtaliyadakı səfirliyinin mədəniyyət şöbəsinin başçısı Salman Səfərinin söylədikləri: Onun səfirliyə gəlməsinə təəccüb etdim. Xristian təriqətli Anielli klanı və İran İslam Respublikasının səfirliyi? O, məndən bir məsələ haqda öyrənmək istədiyini bildirdi. Bunun nədən ibarət olmasını soruşduqda o, qəbul etdiyi şiə əqidəsini hər kəsə bildirməli olduğunu və ya gizli saxlanmaqda günah olub olmadığını bilmək istəyirdi. Bu barədə mən onun azad olduğunu, heç bir məcburiyyət olmadığını söylədim. O isə bu işin gizli qalmasının daha çox əhəmiyyət kəsb etdiyini bildirdi.

Şiə araşdırmaçısı Fəxrəddin Hicazi: Mənə bir gəncin mənimlə görüşmək istədiyini dedilər. Biz görüşdüyümüz zaman o, şiə əqidəsi haqqında müxtəlif şeylər soruşdu. Mən isə onun sorğularını lazımi qədərincə cavablandırmağa çalışdım. Sonda o, bu haqq dini qəbul etdiyini bildirdi. Lakin məndən xahiş etdi ki, onun bu əqidəni qəbul etməsini kimsəyə söyləməyim. O, getdikdən sonra mən onun kimliyini soruşduqda onun məşhur senator Covanni Aniellinin oğlu Eduardo olduğunu bildirdilər. O, şiə İslamını qəbul etdikdən sonra adını dəyişdirib Hişam qoydu. Əlbəttə, bu barədə yalnız ona yaxın olanlardan savayı heç kəs bilmirdi.

Eduardo Aniellinin İmam Xomeyni ilə görüşü haqqında Ayətullah Rəfsəncani öz kitabında yazırdı: "İranda baş tutan görüşdə onlar İslam dünyasının problemlərindən danışdılar. Gələcəkdə düzəldilməsi mümkün olan işlər haqqında fikir mübadiləsi apardılar."

Sonralar Eduardo, İmam Xomeyni ilə olan görüşünü həyatının bütünlüklə dəyişməsində xüsusi rol oynadığını deyirdi. Bəlkə də bu səbəbdən də Eduardo, İmam Xomeyninin qucaqlayıb öpdüyü ilk və son xarici vətəndaş idi.

Bu hadisədən xəbər tutan İtaliya mediası Eduardonun İmam Xomeyni tərəfindən tilsimləndiyini yazdı. Bu yazılarda onun İslamı qəbul etməsi əsla qeyd olunmurdu. Təbii ki, bu xəbər senator Aniellini heç də sevindirmədi.

Turin şəhəri az qala bütövlüklə Anielli klanına məxsus idi. Bu klana aid olan bir çox zavod, fabrik, şirkətlərdə şəhər əhalisinin 70-80%-i işlə təmin olunmuşdu. Lakin təəccüb doğuran hal bu ailənin yeganə oğlu və varisi Eduardonun İslamı, xüsusilə də şiə əqidəsini qəbul edəndən sonra onun maddi çətinlikdə boğulması idi. O, təhqir olunur, böhtana məruz qalır, hətta həbs də olunurdu.

**Doktor Hüseyn Abdullahi deyir:** O, heç bir şey istəmir, durumundan şikayətlənmirdi. Eduardo sıxılır, əzilir, təhqir olunurdu.

Onun hər nəyi vardısa əlindən alınmışdı. Lakin o, əqidəsi naminə buna dözürdü.

Katolik xristianlığın beşiyi sayılan İtaliyada klanın nüfuzunu qorumağa çalışanlar, başda Covanni Anielli olmaqla Eduardoya təzyiq göstərirdilər. İmkanları əlindən alınmaqla ona anbaan təzyiq artırdı. Getdikcə səfalət həddinə qədər enən Eduardo bunu əqidəsi yolunda bir imtahan adlandırırdı. Təzyiqlər isə davam edirdi.

Onun dostları bildirirdilər ki, Turin şəhərinin yuxarı ətrafında yerləşən Aniellilər qəsri heç bir ictimai nəqliyyat vasitəsinin keçə bilmədiyi ərazi olduğu üçün burada gediş-gəliş yalnız xüsusi nəqliyyatla mümkün idi. Bu baxımdan da Eduardo çox çətinlik çəkirdi. Şəxsi maşını olmadığı üçün evə taksi ilə gələrkən yol haqqını dostları ödəyirdi. Lakin o, təmkinli olmağa çalışır, təbəssüm edir və Allah yolunda iradəli olmağın önəmli bir şərt olduğunu söyləyirdi.

Senator Covanni Anielli Eduardonu bu yolla əqidəsindən döndərə bilməyəcəyini görüb yeni bir təzyiqə əl atacaqdı. Onun bu dəfəki təzyiq vasitəsi Eduardonu ruhi xəstəxanaya yatırması oldu.

Eduardo yəhudilərdən ibarət tibb heyətinin əlində bir gün öldürüləcəyini deyirdi. O, bu imtahana da dözdü.

Aldığı şərq fəlsəfəsinin elmi incəliyi, qəbul etdiyi İslam dininin mənəvi təfəkkür genişliyi və dostlarının əlaqələri onun tam sağlam olmasına əsas verərək ruhi xəstəxanadan çıxmasına kömək oldu. Xəstəxanadan çıxandan sonra dostları ona ölkəni tərk etməyi tövsiyə etdilər. Onun İrana getməsi daha məqsədəuyğun göründü. Lakin çox çalışsalar da Anielli klanı buna imkan vermir. Hətta İran hava yolları da Eduardonun bu ölkəyə getməsini təmin edə bilmir. Səbəb isə Covanni

Aniellinin bu işə qoyduğu açıq qadağa idi.

80-ci illərin sonu əqidə baxımından atası ilə yaranan konfliktlərin ardınca və İtaliyanın nüfuzlu orqanlarının Eduardonun İslamı qəbul etməsini duyduqdan sonra senator Covanni Eduardo Anielli son addımını atdı. O, tək varisi, ailəsinin tək övladı Eduardonu varislikdən rəsmi surətdə məhrum edir. Bu addımına bir neçə şeyi əsas səbəb gətirsə də İslam bütün bunların fövqündə dururdu. Klan işlərinin idarə şurası Eduardonun bibisi oğlunu varis olaraq elan edir. Eduardo bu xəbəri eşidəndə bibisi oğluna məktub yazaraq varisliyə görə təbrik edir, ona gələcək işlərində uğurlar arzulayır.

Eduardonun bundan sonrakı həyatı dini problemlərin həlli, ac və səfillərin acınacaqlı həyat tərzinin yaxşılaşdırılması istiqamətində davam edir. O, bir çox şəhərlər gəzir, İran-İtalyan cəmiyyətinin xətti ilə yardımlar göstərir. 1990-cı ildə o, Keniyaya, Xose Marina şəhərinə yollanır. Bu şəhərin ən kasıb məhəllələrində yaşayan müsəlman zəncilərlə görüşür, onların taleyi, yaşayış tərzləri haqqında maraqlanır. Burada qalmaq Eduardo üçün yerli camaatla daha yaxın ünsiyyət qurmağa əsas verirdi.

Bir gün o, məhəlləni dolaşarkən qonşuluqda onunla bərabər yaşayan iki avstraliyalının elə küçədəcə narkotik maddə qəbul etdiyini görür. Onlara yaxınlaşan Eduardo bu əməlin Allah tərəfindən mənfi olduğunu söyləyir, eyni halda başqalarına da mənfi təsir qoyacağını bildirir. Bu hadisədən bir gün sonra isə klan tərəfindən qurulan oyunla həmin iki avstraliyalını həbs edən polis işçiləri qonşu evdə yaşayan Eduardonu da həbs edirlər. İttiham olaraq bildirirlər ki, guya o, həbs zamanı əlində olan 300 qram narkotik maddəni pəncərədən həyətə atıb. Beləliklə Eduardo, avstraliyalılar ilə birlikdə həbs olunur.

Qısa bir müddətdə İtaliya mətbuatı Eduardonun narkotika ilə məşğul olan düşgün narkoman olduğunu yazırlar. Oğlunun nüfuzunu guya qorumağa qalxan Covanni Anielli Keniyaya gəlir və Eduardonu İtaliyaya qayıtmasını, bu işin isə vəkillər tərəfindən yoluna qoyulacağını təmin edəcəyini bildirir. Ancaq Eduardo bununla razılaşmır. Özü bu işlə məşğul olacağını, həqiqi adını bərpa edəcəyini bildirir.

Məhkəmədə şahid qismində olanlar Eduardonun narkotikanı pəncərədən atdığını iddia edirlər. Belə olan halda Eduardo onu həbs etdikləri yerə aparmağı və şahidlərin bu hadisəni gördükləri kimi göstərmələrini xahiş edir. Bu xahişi qəbul edən müstəntiqlər şahidlərlə birlikdə müttəhimi hadisə yerinə gətirirlər. Həmin evin sahibi göstərilən pəncərənin artıq neçə ildən bəri bağlı olduğunu və açılmasının mümkün olmadığını deyir. Məhz danılmaz fakta əsaslanandan sonra Eduardo azadlığa buraxılır. O, Turinə qayıdır.

1997-ci ildə Eduardonun varisliyə təyin olunmuş bibisi oğlu qəflətən dünyasını dəyişir.

Bundan sonra Covanni Anielli, qızının milliyyətcə yəhudi olan ikinci ərindən dünyaya gəlmiş oğlunu Con Elkonanı varis təyin edir. Lakin birinci varislikdən fərqli olaraq Eduardo kökü yəhudi olan Conun varisliyini çox sərt qarşılayır, kəskin surətdə bildirir ki, varislik hüququnu geri qaytaracaq. Pulun heç zaman əsas məqsəd deyil, yalnız vasitə



olduğunu deyən 46 yaşlı fəlsəfəçi Eduardo öz hüquqlarını müdafiə etməyə qalxır.

Getdikcə işin mürəkkəbliyini görən dostları ona ehtiyatlı olmağı məsləhət bilirlər. O isə deyirdi: Nə qədər ki, atam sağdır, mənə heç bir şey edə bilməzlər.

O, öldürüləcəyini bilirdi.

Hüseyn Abdullahi: Onun ölümündən bir həftə qabaq biz bir yerdə idik. Mən ertəsi gün İrana gedəcəyimi ona dedim. O da getmək istəyirdi. Bir an düşünüb yaxın zamanda İrana gələcəyini bildirdi.

Hüseyn Abdullahi ilə son görüşündə yaxın müddətdə İrana gələcəyini, bu ölkədən siyasi sığınacaq alıb yaşayacağını, dini-elmi mərkəz olan Qum şəhərində dini təhsilini davam etdirəcəyini söyləmişdi.

Hüseyn İrana yola düşəndə o, növbəti görüşlərinin İranda olacağına inanırdı.

Lakin onların son görüşündən bir həftə sonra 2000-ci il noyabr ayının 15-i General Franko adına körpünün üstündə Eduardoya məxsus avtomobilin qapıları açıq halda durduğunu görən Fiat şirkətinin işçilərindən biri Frankini maşınından düşür. Eduardonun maşınına yaxınlaşır.

Maşında heç kəsin olmadığını görəndə maraq və həyəcanla yaxınlıqdakı maşın təmiri məntəqəsinə gəlir. Heç bir şey öyrənə bilməyib yenidən geri qayıdır. Ətrafı gəzir və 100 metr hündürlükdən aşağı, çınqıllıqların üstündə Eduardonun cəsədini görəndə dəhşətlə qışqırır.

Ölüm xəbəri sürətlə yayılır. Başqalarından fərqli olaraq həmişə Eduardonun əhatəsində olan azsaylı əqidə dostları bu hadisənin mümkünsüzlüyünü deyirdilər.

Eduardonun yaxın dostlarından birinin araşdırmaları və göstərdiyi faktlar çox maraqlı idi.

Bu faktlar Eduardonu başqa yerdə öldürüb cəsədini özünəqəsd kimi körpüdən atıldığını təsdiqləyirdi.

Bu işlə məşğul olan prokurorluq isə nəinki işin gedişini izləməyi, hətta bu barədə maraq göstərənləri də təzyiqə məruz qoyurdu.

Beləcə Aniellilər klanına məxsus böyük mafiya Eduardonun ölüm faktını özünəqəsd kimi qiymətləndirərək bu işi bitmiş hesab etdilər. Turindən 40 km aralıda, Aniellilərin şəxsi qəbristanlığında yalnız yaxın ailə üzvlərinin iştirakı ilə Eduardo xristian təriqətilə dəfn olundu.

Baş verən hadisə xristianlığın ürəyi sayılan İtaliyada cərəyan etdiyindən cəfəri müsəlmanının qətlə yetirilməsi danılmaz bir fakt idi.

Əbülfəz Bunyadov (İHQ)







# İRƏVAN MƏSCİDLƏRİ

***Ermənistandakı müsəlmanların əsasını immiqrantlar təşkil edir. Tədqiqat Mərkəzlərinin araşdırmalarına görə, əhalinin 0.1 faizi müsəlmandır. Ancaq son demoqrafik inkişaf nəticəsində bu rəqəm iki dəfə artıb.***

***Müsəlmanların Ermənistanda az olma səbəbi ondan ibarətdir ki, bu ölkə heç vaxt müsəlmanlaşdırılmayıb.***

***Bir də əksəriyyəti müsəlman olan azərbaycanlılar 1988-1991-ci ildə Ermənistandan qovuldu. Bu da Ermənistanda yaşayan müsəlmanların sayının sürətlə azalmasına səbəb oldu.***

1832-ci ildə İ.Şopen İrəvan şəhərində 12 məscid qeydə almışdı: Came məscidi, Qala məscidi, Şah Abbas məscidi, Zal xan məscidi, Novruzəli bəy məscidi, Sərtibxan məscidi, Hüseynəli xan məscidi, Hacı İmamverdibəy məscidi, Hacı Cəfərbəy məscidi və s. Erməni vandalları Qərbi Azərbaycan ərazisində salamat qalmış bir sıra Azərbaycan və bütün alban abidələrini erməniləşdirmişlər.

Göydələn minarələri olan İrəvan məscidləri şəhərin əsas siluetini səciyyələndirən tikililərdən idi. Belə məscidlərin elə 4-ü qalanın "Şəhər" adlı məhəlləsində yerləşirdi: "Novruzəli xan", "Hüseynəli xan" (Göy məscid), "Xoca Səfərbəy" və "Məhəmməd Sərtibxan" məscidləri. 1604-cü ildə I Şah Abbas İrəvan qalasını osmanlılardan azad edəndən sonra Sərdar sarayının şərq tərəfində möhtəşəm bir məscid inşa etdirdi. 1606-cı ildə inşa edilən bu məscidin memarı o vaxtın məşhur sənətkarı Şeyx Bahəddin idi. Gəncə məscidi ilə ümumi oxşarlığı olan İrəvan məscid kompleksinə mədrəsə, kitabxana, mehmanxana və müxtəlif təyinatlı tikililər daxil idi. 1918-ci ilə qədər məscid və ətrafındakı binalar kompleksi yarıuçuq da olsa, qalırdı. Sonralar tamamilə məhv edildi.

1725-ci ildə Rəcəb Paşa tərəfindən İrəvan qalasında yeni bir məscid inşa edildi. XVIII əsrdə Abbas Mirzə tərəfindən inşa etdirilən məscid də memarlıq üslubuna görə hər kəsi heyran edəcək gözəllikdə olmuşdur. Ruslar İrəvan qalasını işğal etdikdən sonra (1827) Abbas Mirzənin inşa etdirdiyi məscid tamamilə sökülmüş, Rəcəb Paşanın ucaltdırdığı məscidin yerində isə rus kilsəsi tikilmişdir.

Göy məscid adı ilə məşhur olan Hüseynəli xan məscidinin öncə dörd minarəsi olmuşdur. İkinci dünya müharibəsindən sonra məscidin üç minarəsini dağıtmışlar.

XX yüzilliyin əvvəllərinə qədər İrəvan qalasında 8 məscid fəaliyyət göstərmişdir. İndi onların izi belə qalmamışdır. İrəvan qalasında ən qədim məscid 1510-cu ildə Şah İsmayılın əmri ilə inşa olunmuşdur. 1918-ci ildə ermənilər həmin məscidə müsəlmanları doldu-raraq od vurub yandırmışlar. Məscid insanlarla birgə tamamilə yanıb külə dönmüşdür.

**GÖY MƏSCİD:** Ermənistanın paytaxtı İrəvanda yerli müsəlmanların ibadət etdikləri məsciddir. 1766-cı ildə İrəvan xanı Hüseyn-Əli Xanın əmriylə tikilmişdir və Azərbaycan memarlıq nümunələrindən biridir. Eni 66 metr, uzunluğu 97.2 metr olan Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü və İrəvan şəhərinin mərkəzi məscidi idi. Çar dövründə İrəvanda azərbaycanlıların ibadət etdikləri 8 məsciddən biri idi. Məscid 28 hücrə, kitabxana, ibadətgah və iç həyətdən ibarətdir və ümumilikdə 7000 kvadrat metrlik ərazidə yerləşir. İkinci Dünya müharibəsindən sonra Sovet hökumətinin radikal ateist siyasətinə uyğun olaraq hündürlüyü 24 metr olan 4 minarədən 3-ü söküldü. Məscid XX əsrdə ermənilər tərəfindən iki dəfə- ilk dəfə 1918-ci ildə, sonra isə 1955-ci ildə yandırılmışdır. 1995–2006-cı ildə məscid İran tikinti şirkətlərinin köməyi ilə bərpa olunub və İranın Ermənistandakı mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. İngilis tədqiqatçısı Tom de Vaal yazır: "Ermənilərin azərbaycanlılara məxsus məscidin belə asanlıqla yer üzündən silmələrini linqvistik oyun ilə izah etmək olar: Sən demə, Ermənistan azərbaycanlılarını ölkənin tarixindən asanlıqla silmək olar, çünki, XX əsrə qədər burada azərbaycanlıları "tatar", "türk" və ya sadəcə "müsəlman" adlandırırdılar.







İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Beləliklə 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 Əhli-beyt (ə) məscidi fəaliyyət göstərib. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscid prixodları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seyidlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərib. Ümumilikdə İrəvan quberniyasının Eçmiədzin uyezdində 36 məscid, Sürməli uyezdində 47 məscid, Şərur-Dərələyəz uyezdində 63 məscid, Novobayəzed uyezdində 14 məscid, İrəvan uyezdində 54 məscid fəaliyyət göstərib. Bu məscidlərdə quberniyada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların qeydiyyatı aparılıb. Hər məscidin mollası qubernator tərəfindən təyin olunub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

Bununla belə, onlar nə fars, nə də türk idilər. Onlar türkdilli müsəlmanlar idilər… Bir sözlə, onlar indiki azərbaycanlıların babaları idilər".

**ABBAS MİRZƏ MƏSCİDİ:** XVIII əsrdə Abbas Mirzə tərəfindən İrəvan qalasında inşa etdirilən məscid.

Ruslar İrəvan qalasını işğal etdikdən sonra (1827) Abbas Mirzənin inşa etdirdiyi məscid tamamilə sökülmüşdür.

**ŞAH ABBAS MƏSCİDİ:** İrəvan məscidləri arasında sənət dəyəri baxımından Şah Abbas məscidinin əhəmiyyətli bir yeri var. 1606-cı ildə inşa edilən məscidə xalq Şah Abbas məscidi adını vermişdir. Həmçinin, Gəncədə inşa edilən məscid də eyni memar Şeyx Bahəddin tərəfindən inşa edildiyindən bir-birilərinə çox bənzəyirlər. İrəvan Xan sarayının (Sərdar sarayı) şərq tərəfində inşa edilən məscidin yanında mədrəsə, kitabxana və mehmanxana tikilmiş, böyük bir həyətlə ətraflanan möhtəşəm bir arxitektura ümumi olaraq elm mərkəzi rolunu oynamışdır. İrəvan xanlığı zamanında məscidin aş evində kasıblara gündə üç pay yemək verilməkdə idi. Dini bir məkan olmanın yanında ictimai bir quruluş olan bu məscid ermənilər tərəfindən hər fürsətdə korlandığından bu gün xaraba halındadır.

**ZALHAN MƏSCİDİ:** İrəvanda məsciddir. Zalhan məscidinin II Dünya müharibəsindən sonra arxitektura xüsusiyyəti pozularaq şəkil və sərgi binası halına gətirilmişdir.

**XUDABƏNDƏ MƏSCİDİ:** Səfəvi hökmdarı Məhəmməd Şah Xudabəndə tərəfindən tikilmiş məscid. Uzunluğu 9 metr olan bu məscidin eni 6 metr, hündürlüyü isə 12 metr idi. Kiçik mehrabı olan məscid qırmızı bişmiş kərpicdən inşa edilmişdir. 1685-ci ildə Səfəvi hökmdarı Şah Süleyman tərəfindən təmir etdirilən məscidin giriş qapısı üzərində bir təmir kitabəsi qoyulmuşdur.

**SƏRDAR MƏSCİDİ:** Qala məscidi və ya Köhnə məscid adlandırılan bu məscid İrəvandakı məscidlərin ən qədimidir. Məscidin tikilməsi Şah İsmayılın tapşırığı ilə onun vəziri Rəvanqulu xanın İrəvan qalasını tikdirdiyi dövrə təsadüf edir. 1510-cu ildə tikilmiş bu məscid 1589-cu ildə Osmanlı türkləri tərəfindən yenidən bərpa edilmişdir. İrəvan qalası içərisində və Sərdar sarayı yaxınlığında yerləşdiyi üçün Sərdar məscidi adlandırılıb. 1918-ci ildə ermənilər İrəvanın müsəlman əhalisini məscidə dolduraraq məscidlə birgə yandırmışlar.

**RƏCƏB PAŞA MƏSCİDİ:** 1725-ci ildə Rəcəb Paşa tərəfindən İrəvan qalasında inşa edilmiş məsciddir. Ruslar İrəvan qalasını işğal etdikdən sonra (1827) Rəcəb Paşanın ucaltdırdığı məscidin yerində Rus Pravoslav kilsəsi tikilmişdir.

**ŞÜKÜRBƏYLİ MƏSCİDİ:** Ruslar 1827-ci ildə məscid binasının içərisini dəyişmiş və adını da "Svyatoy Boqoradic" (Müqəddəs Məryəm) qoymuşlar. Şükürbəyli məscidi hazırda rus kilsəsi kimi fəaliyyətdədir.

Ənvər Talıblı

# KROSSVORD



## Soldan sağa

5. Birlik, ittihad
6. Quranın baharı adlanan surə
7. QuranIn 3-cü surəsi
9. Oğlunun həsrətindən gözləri görməyən Peyğəmbər
13. İmam Əliyyən Nəqi
14. İmam ZamanIn ləqəbi
15. Ayə
16. Həftənin ən fəzilətli günü
18. Süleymana belə qalmayan
21. Dua
23. Cahildə olmayan
25. Ululəzm Peyğəmbəri
26. Ətir
27. Ata-baba
28. Haram
29. İmam Məhəmməd Təqi

## Yuxarıdan aşağı

1. İslam Peyğəmbərinə (s) peyğəmbərlik verilən yer
2. Həzrət Əlinin (ə) qIzI
3. Günahkar
4. Haram
8. İlahi Peyğəmbərlərdən biri
10. Min aydan üstün gecə
11. Azan
12. Məkana ehtiyacI olmayan
13. PaxIllIq
15. İbadət vəziyyəti
17. Fiqh alimi
19. Quranda (işIq mənasI verən) surə
20. İqamə
22. Hz. Zeynəbin ləqəbi
24. Allah evi

# *DEYƏ DÜŞÜNMƏLİDİR HƏR BİR MÜSƏLMAN...*

***İnsanlar cəhənnəmə girmək üçün malını və canını verir. Təsəvvür edirsinizmi pul verir cəhənnəmə girmək üçün.Cənnət isə havayıdır cəhənnəmdən fərqli olaraq. Necəmi???***

***-Namaz neçəyədir? Namaz qılmaq üçün pul ödəmirsən.***
***-Dəstəmaz neçəyədir? Dəstəmaz üçün də sizdən pul istəyən yox.***
***-Namuslu yaşamaq neçəyədir?***
***-Quran oxumaq neçəyədir?***
***-Günahdan, zinadan qorunmaq neçəyədir?***
***-Şərəfli yaşamaq neçəyədir?***
***Fikir verin sadalananların heç biri üçün pul ödəmirsən.Lakin....***

***-Namussuzluq pul. Pul ödəyərək bunları edirsən. İçki pul, zina pul, şərəfsizlik pul, qumar pul, ümumiyyətlə cəhənnəmə gedən yolların hamısı pulladır.***
***Maraqlıdır ki, kimlərsə pulla cəhənnəmi qucaqlayır ancaq havayı Cənnətə girməyə çalışmır. Cəhənnəmə girməyə marağın varsa o zaman əməllərin sırasına bunları da qat…***

***İnkarçı olacaqsan. Qurani Kərimi bəyənməyəcəksən.***
***Dinin əmrlərinə qarşı gələcəksən.***
***Namaz, zəkat, oruc kimi ibadətlərin səmtinə belə baxmayacaqsan.***
***Yetim malını nüfuzuna keçirəcəksən israf edəcəksən.***
***Qul haqqını yeyib bu haqla axirətə köçəcəksən.***
***Heç kimdən halallıq istəməyəcəksən.***
***Yalan danışacaqsan.Verdiyin vədlərə əməl etməyəcəksən.***
***Sənə əmanət edənlərə xəyanət edəcəksən.***
***Mənfəətin üçün hər şeyi, hətta mənliyini belə satacaqsan.***
***Nəslin pozulması üçün planlar hazırlayıb zina edəcəksən....***
***İnanıram ki, bu cümlələri oxuyanlar arasında cəhənnəmi dörd əlli qucaqlayanlar yoxdur.***
***Ancaq indi sən qərar ver. Yanmaq üçün bu qədər məsrəfə və əzaba dəyərmi?***



# AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 5:21 | 6:45 | 13:05 | 19:25 | 19:42 | 00:31 |
| 02 | 5:19 | 6:43 | 13:04 | 19:26 | 19:44 | 00:30 |
| 03 | 5:17 | 6:41 | 13:04 | 19:28 | 19:45 | 00:30 |
| 04 | 5:15 | 6:40 | 13:04 | 19:29 | 19:46 | 00:30 |
| 05 | 5:13 | 6:38 | 13:04 | 19:30 | 19:47 | 00:29 |
| 06 | 5:11 | 6:36 | 13:03 | 19:31 | 19:48 | 00:29 |
| 07 | 5:09 | 6:35 | 13:03 | 19:32 | 19:49 | 00:28 |
| 08 | 5:07 | 6:33 | 13:03 | 19:33 | 19:50 | 00:28 |
| 09 | 5:06 | 6:31 | 13:02 | 19:34 | 19:51 | 00:28 |
| 10 | 5:04 | 6:30 | 13:02 | 19:35 | 19:53 | 00:27 |
| 11 | 5:02 | 6:28 | 13:02 | 19:36 | 19:54 | 00:27 |
| 12 | 5:00 | 6:27 | 13:01 | 19:37 | 19:55 | 00:26 |
| 13 | 4:58 | 6:25 | 13:01 | 19:38 | 19:56 | 00:26 |
| 14 | 4:56 | 6:23 | 13:01 | 19:40 | 19:57 | 00:26 |
| 15 | 4:54 | 6:22 | 13:01 | 19:41 | 19:58 | 00:25 |
| 16 | 4:52 | 6:20 | 13:00 | 19:42 | 19:59 | 00:25 |
| 17 | 4:50 | 6:19 | 13:00 | 19:43 | 20:01 | 00:25 |
| 18 | 4:48 | 6:17 | 13:00 | 19:44 | 20:02 | 00:24 |
| 19 | 4:47 | 6:16 | 13:00 | 19:45 | 20:03 | 00:24 |
| 20 | 4:45 | 6:14 | 13:00 | 19:46 | 20:04 | 00:23 |
| 21 | 4:43 | 6:13 | 13:00 | 19:47 | 20:05 | 00:23 |
| 22 | 4:41 | 6:11 | 12:59 | 19:48 | 20:06 | 00:23 |
| 23 | 4:39 | 6:10 | 12:59 | 19:49 | 20:07 | 00:22 |
| 24 | 4:37 | 6:08 | 12:59 | 19:51 | 20:09 | 00:22 |
| 25 | 4:35 | 6:07 | 12:59 | 19:52 | 20:10 | 00:22 |
| 26 | 4:34 | 6:05 | 12:59 | 19:53 | 20:11 | 00:21 |
| 27 | 4:32 | 6:04 | 12:58 | 19:54 | 20:12 | 00:21 |
| 28 | 4:30 | 6:02 | 12:58 | 19:55 | 20:13 | 00:21 |
| 29 | 4:28 | 6:01 | 12:58 | 19:56 | 20:14 | 00:20 |
| 30 | 4:26 | 6:00 | 12:58 | 19:57 | 20:15 | 00:20 |

www.iman.ge

imanmedia.ge

sualcavab.ge

islammobile.biz


*Təsisçi: "İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*


Quran ayələri və hədislər
dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.